# QARABAĞ AZƏRBAYCANDIR!



## 2023-CÜ İL - Heydər Əliyev liderliyinin qalibiyyət və zəfər rəmzi

8

SƏS
№ 007 (6690) 14 yanvar 2023-cü il. Qiymətı 60 qəpik

## Azərbaycan yeni sosial-iqtisadi uğurlara imza atır!

2

*Prezident İlham Əliyevin 2018-ci il 11 aprel tarixli andiçmə mərasimindəki çıxışı zamanı bildirmişdir: "Biz gələcəyə baxmalıyıq və baxırıq. Növbəti illərdə görüləcək işlər haqqında bizim çox aydın təsəvvürümüz, planlarımız, proqramlarımız var.*



# Rusiyanın nüfuzlu teleqram kanalı: "Fransa Zaqafqaziya cəbhəsi açır"

13

*Rusiyanın 300 minə yaxın izləyicisi olan nüfuzlu "Kremlyovskaya praçka" teleqram kanalı son vaxtlar Ermənistanda artan anti-Rusiya siyasəti, eləcə də Fransanın Ermənistan vasitəsi ilə regiona soxulma cəhdləri barədə analitik şərhlə çıxış edib. Məqalənin regionumuza həsr olunmasını nəzərə alaraq oradakı bir neçə diqqətçəkən məqamları diqqətinizə çatdırırıq. Beləliklə, Fransanın Cənubi Qafqaza daxil olması üçün Ermənistan kartından yararlanması faktorlarına toxunan adıçəkilən kanalın yazdığına görə, Fransa məhz bu vasitə ilə Rusiyanın tarixi və strateji maraqları olan regionda əlavə gərginlik yaratmağa çalışır.*



## Təqaüdlərin artırılması sevinc doğurdu



10

## Ölkəmizdə hüquqi dövlət qurulub, vətəndaş cəmiyyəti bərqərar olub



6

## Son 4 ildə sosial müavinətlər neçə faiz artıb?



4



15

## "Azərbaycan etibarlı enerji təchizatçısı kimi tanınıb"

## BMT-də islahatlar nə üçün zəruridir?




4

# Azərbaycan yeni sosial-iqtisadi uğurlara imza atır!



***Prezident Ilham Əliyevin 2018-ci il 11 aprel tarixli andiçmə mərasimindəki çıxışı zamanı bildirmişdir: "Biz gələcəyə baxmalıyıq və baxırıq. Növbəti illərdə görüləcək işlər haqqında bizim çox aydın təsəvvürümüz, planlarımız, proqramlarımız var. Ona görə mən əminəm ki, bütün Azərbaycan xalqı və biz hamımız gələcəyə çox böyük nikbinliklə baxırıq.***

Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar”. Azərbaycan Prezidenti dəfələrlə çıxışlarında vurğulayıb ki, əldə edilmiş uğurların dünyada bərabəri yoxdur.

Bəli, həqiqətən də bu danılmaz aksiomadır. Məhz ölkəmizin iqtisadiyyatın inkişaf tempinə görə regionda lider dövlətə çevrilməsi də təsadüfi deyil. Azərbaycan hökumətinin yürütdüyü müstəqil siyasət həmişə birmənalı olub, ”Güclü dövlət, güclü iqtisadiyyat və sosial rifah”. Bax, bu prinsiplərin vəhdəti bu gün Azərbaycanı dünyada seçilmiş ölkələrin sırasına daxil edibdir. Bunun nəticəsində, biz uğurla inkişaf edirik. Bu fakt son 19 ildə Azərbaycan iqtisadi göstəricilərinə görə islahatçı ölkələr siyahısında olması bir daha deyilənlərin göstəricisidir.

Elə bu günlərdə Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin ”Masdar” şirkəti tərəfindən Azərbaycanda inşa ediləcək Qaradağ Günəş Elektrik Stansiyasının təməlqoyma mərasimindəki çıxışında bildirib ki, müstəqillik dövründə Azərbaycan əhalisi 7 milyondan 10 milyona çatıb və bu, əlbəttə ki, böyük üstünlükdür. Eyni zamanda, sənaye və iqtisadiyyatımız artır.

”Bu ilin iki ayında ümumi daxili məhsul 6,7 faiz, qeyri-neft sektoru 10,1 faiz, qeyri-neft sənaye istehsalı təxminən 21 faiz artmışdır. Bütün bunlar postpandemiya dövründə əldə edilmiş nailiyyətlərdir və onu göstərir ki, Azərbaycanda aparılan islahatlar, sənayeləşmə siyasəti, biznes mühitinin yaxşılaşdırılması və xarici sərmayənin cəlb edilməsi istiqamətində doğrudan da təqdirəlayiq addımlar atılır”, - deyə dövlətimizin başçısı vurğulayıb.

Prezident İlham Əliyev əlavə edib ki, Azərbaycan dünya miqyasında o ölkələrdəndir ki, xarici dövlət borcu çox aşağı səviyyədədir, cəmi 7,4 milyard dollardır: ”Əgər istəsək, biz bu borcu bir gün ərzində sıfırlaya bilərik. Əlbəttə ki, həm beynəlxalq maliyyə qurumları, həm böyük şirkətlər, investorlar Azərbaycana çox böyük maraqla yanaşırlar”.

## ƏLDƏ EDİLMİŞ UĞURLARIN DÜNYADA BƏRABƏRİ YOXDUR

Prezident İlham Əliyev cənablarının dediyi ”Əldə edilmiş uğurların dünyada bərabəri yoxdur” fikri, bu gün həqiqətən də ölkəmizdə İkinci Vətən müharibəsinin qələbəsi ilə başa çatması deyilənlərin göstəricisidir. Xüsusilə, mənfur terrorçu Ermənistan sentyabrın 27-də İkinci Vətən müharibəsi başlayan gündən bütün dünya bir daha şahidi oldu ki, Azərbaycan həqiqətən də güclü dövlətdir və bunu işğalçı, faşist xislətli düşmən dövlət də bir daha gördü. Və işğal olunmuş torpaqlarımızın azad olunması, məhz Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev cənablarının uzun illər ərzində həyata keçirdiyi ordu quruculuğu nəticəsində dünyanın ən güclü 50 ordusundan birinə çevrilməsidir ki, Müzəffər Azərbaycan Ordusu və rəşadətli əsgərlərimiz bu gün döyüş meydanında öz sözünü deyir və işğalçılıq siyasətindən əl çəkmək istəməyən Ermənistan öz layiqli cavabını alır. Çünki Azərbaycan haqq və ədaləti, beynəlxalq hüquq müstəvisində öz ərazi bütövlüyünün bərpa olunması yolunda mübarizədə Qalib gələrək bir daha sübut etdi ki, Qarabağ Azərbaycandır!Belə ki, Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi son 19 ildə Azərbaycanın ümumi daxili məhsul istehsalı 3,4 dəfə artıb. 2003-cü ilə nisbətən ötən ildə qeyri-neft-qaz sektoru üzrə ÜDM istehsalı 3,1 dəfə, sənaye məhsulu istehsalı 2,7 dəfə, o cümlədən qeyri-neft-qaz sənayesi üzrə 3,6 dəfə çoxalıb. Xarici ticarət dövriyyəsində 6,5 dəfə, o cümlədən, idxalda 4,5 dəfə, ixracda 8,6 dəfə artıb olub.

**Ardı Səh. 3**







## Almaniya və Azərbaycan prezidentləri arasında telefon danışığı olub




Yanvarın 13-də Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Söhbət zamanı prezidentlər Azərbaycan-Almaniya əlaqələrinin mövcud vəziyyətindən məmnunluqlarını ifadə edib və əməkdaşlığın perspektivlərini müzakirə ediblər.

Regional təhlükəsizlik məsələlərinə toxunan Frank-Valter Ştaynmayer Almaniyanın Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin bilavasitə iştirakı ilə aparılan Avropa İttifaqı-Azərbaycan-Ermənistan üçtərəfli formatını dəstəklədiyini vurğulayıb. Prezident İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəstəyi ilə həyata keçirilən üçtərəfli danışıqları yüksək qiymətləndirdiyini vurğulayaraq, Azərbaycanın Avropa İttifaqı-Azərbaycan-Ermənistan üçtərəfli formatı çərçivəsində aparılan müzakirələr prosesinə sadiqliyini ifadə edib.

Eyni zamanda, telefon danışığı əsnasında Azərbaycanın ərazisində olan Xankəndi-Laçın yolundakı vəziyyət müzakirə edilib. Dövlətimizin başçısı bildirib ki, Ermənistanın yolun guya blokada şəraitində olması barədə iddiaları yalandır, yolda Beynəlxalq Qızıl Xaç Komitəsinin xətti ilə və eləcə də digər humanitar yüklərin sərbəst hərəkəti təmin olunur.

Söhbət zamanı prezidentlər bir daha Azərbaycan-Almaniya əməkdaşlığının perspektivlərini yüksək qiymətləndirərək, bu əlaqələrin inkişafı üçün birgə səylərin göstərilməsinin vacibliyini qeyd ediblər.

# Azərbaycan yeni sosial-iqtisadi uğurlara imza atır!



Əvvəli-Səh-2

Təkcə bu ilin yanvar-noyabr aylarında Azərbaycanın xarici dövriyyəsi 49 milyard 217 milyon 15 min ABŞ dolları təşkil edib. Bunun 36 milyard 335 milyon 549 min dolları ixracın, 12 milyard 881 milyon 466 min dolları idxalın payına düşür.Bütün bunlar, dövlət başçımız Prezident İlham Əliyevin "Güclü iqtisadiyyat ən önəmli şərtdir. Azərbaycanda bütün məsələləri həll etmək üçün ilk növbədə iqtisadiyyat güclü olmalıdır" sözləri iqtisadiyyatın müstəsna rolunun qiymətləndirilməsi baxımından xüsusi məna kəsb etməklə Ulu Öndər Heydər Əliyevin "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" kəlamının məntiqi davamı kimi də dəyərləndirilə bilər.

**BU GÜN AZƏRBAYCAN İQTİSADİ CƏHƏTDƏN HEÇ KİMDƏN ASILI DEYİL, HEÇ BİR ÖLKƏDƏN ASILI DEYİL, HEÇ BİR BEYNƏLXALQ MALİYYƏ QURUMUNDAN ASILI DEYİL**

Bir sözlə, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin müdrik rəhbərliyi, misilsiz cəsarəti və yüksək təşkilatçılığı sayəsində Azərbaycan düzgün istiqamətdə irəliləyir və ildən-ilə dünyanın əksər ölkələrinə nümunə ola biləcək iqtisadi, sosial uğurlara imza atır. Ölkənin iqtisadi inkişafının davamlı olmasını özünün iqtisadi siyasətinin təməl prinsipi kimi dəyərləndirən Prezident İlham Əliyev güclü iqtisadiyyatın önəmini belə vurğulayıb: "Əgər iqtisadi gücümüz olmasaydı, bu Qələbəni əldə etmək mümkün olmazdı. İlk növbədə, iqtisadi müstəqillik təmin edilməli idi və təmin edildi. Bu gün Azərbaycan iqtisadi cəhətdən heç kimdən asılı deyil, heç bir ölkədən asılı deyil, heç bir beynəlxalq maliyyə qurumundan asılı deyil".



Azərbaycana son 19 ildə 300 milyard dollara yaxın sərmayə yatırılıb. Xarici investisiyalar 2,2 dəfə artıb. 2004-2021-ci illərdə Azərbaycana 142 milyard dollar həcmində xarici investisiya qoyulub. 2003-2021-ci illərdə Azərbaycanın xarici ticarət əlaqələri qurduğu ölkələrin sayı 124-dən 188-dək və ya 51,6 faiz artıb.Qeyri-neft-qaz sahələrinə yönəldilən investisiyalar isə 7,2 dəfə artıb. 2004-2021-ci illərdə Azərbaycanın qeyri-neft-qaz sektoruna 179,5 milyard dollar həcmində investisiya yatırılıb. 2004-2021-ci illərdə Azərbaycanın digər ölkələrin iqtisadiyyatlarına qoyduğu investisiyaların ümumi həcmi 28,3 milyard dollar təşkil edib. Eyni zamanda, iqtisadiyyatın kreditləşdirilməsi 25,5 dəfə yüksəlib.2023-cü il üçün dövlət büdcəsinin gəlirlərinin 53 milyon 278 min manat artırılaraq 30 milyard 773 milyon 978 min manat müəyyənləşdirilməsi ölkə tarixinin ən yüksək göstəricisi hesab olunur. Dövlət büdcəsinin xərcləri də 53 milyon 278 min manat artırılaraq 33 milyard 353 milyon 278 min manat müəyyənləşdirilib.Azərbaycan həmçinin, dünyada özünü etibarlı tərəfdaş kimi təsdiqləyib. Nəhəng neft-qaz layihələri göstərib ki, biz bütün öhdəlikləri yerinə yetiririk. İmzalanmış kontraktlarda bir vergül belə dəyişdirilməyib.Azərbaycanın bütün uğurlarının, inkişafının təməlində iqtisadiyyatın inkişafı dayanır, ölkə iqtisadiyyatının da təməlində neft strategiyası durur.Bir sözlə, görünməyən dərəcədə əldə olunan bu uğurlar, məhz güclü iqtisadiyyat, güclü dövlət və güclü xalq birliyinin nəticəsidir. Dövlət başçısı çıxışlarında dediyi kimi: "Əlbəttə, gələcəyə baxdıqda, mən tam əminəm ki, Azərbaycan daha da güclənəcək. Bu gün digər məsələləri müzakirə edərkən bir daha Azərbaycan ictimaiyyəti bunu görəcəkdir. Ermənistanın isə inkişafı onun özündən asılı olacaq, Ermənistanın qonşu ölkələrə olan münasibətindən asılı olacaq. Çünki indi hər kəsə aydındır ki, Azərbaycanla və Türkiyə ilə əlaqələri normallaşdırmadan Ermənistan inkişaf edə bilməz və onların 30 illik işğalçılıq siyasəti onların özlərinə baha başa gəldi. Onlar real müstəqil ölkə olmaq şansını itirmişlər. Biz isə 30 il ərzində, - baxmayaraq ki, torpaqlarımız işğal altında idi, - tam siyasi və iqtisadi müstəqilliyə nail olmuşduq. Ona görə bu gün inamla və qürurla öz sözümüzü bütün kürsülərdə deyirik. Ona görə Ermənistan üçün bəlkə də bu, son şansdır. Ya ölkə inkişaf edəcək, ya da daha ağır vəziyyətə düşəcək".



Bir sözlə, bütün bu real faktlar bir daha onu təsdiqləyir ki, 2023-cü ildə Azərbaycanımızı, xalqımızı qarşıda daha nəhəng, daha davamlı uğurlar gözləyir - İlham Əliyev cənablarının liderliyi, rəhbərliyi və əlbəttə ki, müdrik siyasəti nəticəsində. Çünki bu gün Onun ətrafında həm də tükənməz xalq amili, tükənməz xalq sevgisi formalaşıb. İnanırıq ki, dövlətimiz bundan sonra da daha güclü iqtisadiyyata sahib olacaq.

***RƏFİQƏ HÜSEYNOVA***

## Rəsmi xronika

Prezident İlham Əliyev Fəxri adlara görə aylıq təqaüdün məbləğinin artırılması və "Fəxri adlara görə aylıq təqaüdün verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 4 iyul tarixli 878 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə verilən təqaüdlərin məbləğinin artırılması və "Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 14 fevral tarixli 961 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin əməkhaqlarının artırılması haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Əmək kitabçasında müvafiq qeydiyyat aparılan əsas iş yeri üzrə elmi müəssisə və təşkilatlarda və ya təhsil müəssisələrində azı 25 il çalışmış, elmi dərəcəsi olan, işləməyən, əmək pensiyası hüququ olan şəxslərə verilən Azərbaycan Respublikası Prezidentinin təqaüdünün məbləğinin artırılması və "Əmək kitabçasında müvafiq qeydiyyat aparılan əsas iş yeri üzrə elmi müəssisə və təşkilatlarda və ya təhsil müəssisələrində azı 25 il çalışmış, elmi dərəcəsi olan, işləməyən, əmək pensiyası hüququ olan şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 dekabr tarixli 1229 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün məbləğinin artırılması və "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli 564 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün məbləğinin artırılması və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev Orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə qulluq edən şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün məbləğinin artırılması və "Orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə qulluq edən şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli 643 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

# BMT-də islahatlar nə üçün zəruridir?




***Prezident İlham Əliyev yerli telekanallara müsahibəsində bir çox mühüm məqamlara toxundu. Dövlət başçısının diqqət yetirdiyi məsələlərdən biri də BMT-də ciddi islahatlara ehtiyac olması idi. Azərbaycan Prezidenti qeyd etdi ki, xüsusilə Təhlükəsizlik Şurasının tərkibinə yenidən baxılmalıdır.***

Bəli, 70 ilə yaxın müddətdə, xüsusilə də son 30 ildə baş verən hadisələr, siyasi-hüquqi mənzərə BMT-də islahatların zəruri olduğunu qeyd-şərtsiz təsdiqləyir. Çünki:

- birincisi, təşkilat faktiki olaraq hegemon güc mərkəzlərinin geosiyasi inhisarındadır. Xüsusilə də, Təhlükəsizlik Şurasında yer alan ölkələr istənilən qərarı qəbul edirlər, istədikləri vaxt hansısa qərara veto qoya bilirlər. Burada beynəlxalq hüququn subyekti, BMT-nin üzvü olan digər müstəqil dövlətlərin rəyləri, mövqeləri, demək olar ki, nəzərə alınmır. Hətta artıq bəzi beynəlxalq hərbi əməliyyatlarda BMT Təhlükəsizlik Şurasının mövqeyinə (icazəsinə) ehtiyac yoxdur;
- ikincisi, Təhlükəsizlik Şurasında hərbi-siyasi və strateji-təhlükəsizlik məsələləri ilə əlaqədar qərar qəbul edərkən ikili standartlara yol verilir. Məsələn, 1990-cı il avqustun 2-də İraq ordusu Küveytə hücum edərək onu işğal etmişdi. BMT 7 ay davam edən işğala görə İraqa qarşı sanksiyalar tətbiq etmiş, ABŞ və onun müttəfiqləri isə təşkilatın Təhlükəsizlik Şurasından mandat alaraq 1991-ci ilin fevralında "Səhrada tufan" əməliyyatına başlamışdılar. BMT Təhlükəsizlik Şurasının qətnamələrinin dərhal icra edilməsi, sülhə məcburetmə mexanizmlərinin tətbiqi ilə əlaqədar Bosniya və Herseqovina, Komboca, Somali, Yuqoslaviya, Şərqi Timor, Ruanda presedentləri də mövcuddur. Belə nümunələrin olmasına baxmayaraq, Azərbaycan uzun müddət qərəzli yanaşma ilə üzləşdi. Söhbət 4 qətnamənin yerinə yetirilməməsindən gedir. Bu hal Birləşmiş Millətlər Təşkilatının nüfuzuna, reputasiyasına zərbə, beynəlxalq hüquq normalarına hörmətsizlik, laqeydlik və etinasızlıq idi. Azərbaycan BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasını özü təmin etməklə dünyanın 5-dən böyük olduğunu sübuta yetirdi.

Faktlar təsdiqləyir ki, BMT-də islahatların əleyhinə çıxanlar elə Təhlükəsizlik Şurasının 5 daimi üzvü sırasında yer alan dövlətlərdir. Çünki onlar ənənəvi mövqelərini və təsir imkanlarını əldən vermək istəmirlər. Hətta bir müddət öncə "əgər yeni ölkələr "beşliyə" əlavə olunsalar, onların səsvermə hüququ olmamalıdır" yanaşmasının irəli sürülməsi bu arqumenti təsdiqləyir.

Bütün hallarda Təhlükəsizlik Şurasının strukturunda dəyişiklik edilməli, "beynəlxalq birliyin konstitusiyası" adlandırılan BMT Nizamnaməsində əlavələr və düzəlişlər olmalıdır. Bu, qaçılmazdır. Və BMT dilemma qarşısındadır: "ya olum, ya ölüm". Təşkilatın xilası - inam və etimadın, korlanmış imicin bərpası üçün islahat ya olmalı, ya da olmalıdır. Əks halda, olmayan BMT olacaq!



# "Onların yeganə çıxış yolu..."




***"Laçın-Xankəndi yolunda Azərbaycan cəmiyyətinin təmsilçiləri tərəfindən aksiyanın keçirilməsi tariximizin ən şanlı səhifələrindən biridir. Ordumuz 44 günlük müharibə ərzində torpaqlarımızı işğaldan azad edərək, üzərinə düşən vəzifəni yerinə yetirdilər". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Razi Nurullayev bildirib.***

Millət vəkili qeyd edib ki, bu gündə onlar öz vəzifələrini yerinə yetirməkdədirlər: "Həmçinin şanlı ordumuz elə bir vəziyyədədir ki, onlar anti-terror əməliyyatını da həyata keçir bilərlər. İndi isə cəmiyyətin başqa təbəqələri, o cümlədən bütün dünyada geniş praktika alan vətəndaş cəmiyyətinin üzvlərinin etirazı da yerinə düşür. Çünki Ermənistanın işğalçı rejiminin dəstəyi ilə o cümlədən Rusiyadan qaçan və yaxud Rusiyanın tərəfindən göndərilən Ruben Vardaniyanın özünü dövlət katibi elan edərək milyardlarını Azərbaycanın təbii ehtiyatları vasitəsi ilə artırmaq istəyir. Bunu edərək Azərbaycanın təbii sərvətinə, Qarabağın fauna və florasına, suyuna eyni zamanda bitkisinə çox ciddi şəkildə ziyan verirlər.

30 il ərzində Qarabağı xarabalığa çeviriblər indi də onlar orada əbədi qalmayacaqlarını artıq bildikləri üçün tez bir zamanda orada olan sərvətləri talamaq istəyirlər. Məhz bunun üçün vətəndaş cəmiyyətinin təmsilçilərinin həyata keçirdikləri bu aksiyanı dəstəkləyirəm. Bu aksiya davam etməlidir, onların tələbləri həyata keçirilənə qədər də oradan getmək olmaz. Mən gözləyirəm ki, orada olan vətəndaş cəmiyyətinin təmsilçilərinin sayı getdikcə artacaq.

Ermənistan tərəfinin və orada olan separatçı rejimin, onlara rəhbərlik edən Robert Köçəryanın "120 min erməni humanitar böhran içərisindədir" kimi dediyi ifadələri böyük bir yalandan ibarətdir. Ermənistanın hakim partiyasının deputatı orada cəmi 40 min erməni yaşadığını bildirdi. Lakin orada heç 40 min erməni yoxdur. Orada müəyyən monitorinqlər aparılır və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin də qeyd etdiyi kimi orada 25 minə qədər erməni yaşayır. Bu baxımdan orada hər hansı bir humanitar böhranın yaranması barədə çıxan məlumatlar yalandır. Bütün dünyada bunun yalan olduğunu artıq anlamağa başlayıb. Hər gün oradan həm Qırmızı Xaçın, həm də rus sülh məramlılarının humanitar maşınları keçir. Bizim tərəfdən də həmin maşınların o yol üzərindən keçməsinə icazə verirlər. Artıq separatçı rejim öz silahını və həyata keçirtdiyi qanunsuzluqları aradan qaldırmalıdır. Qarşı tərəfin yeganə yolu oradakı separatçıların Azərbaycan cəmiyyətinə inteqrasiya etməsidir".

**B. Hüseynli**



**DEPUTAT ŞƏRH ETDİ**

# Son 4 ildə sosial müavinətlər neçə faiz artıb?

"Cənab Prezident bu gün imzaladığı sərəncamla bir sıra şəxslərin müavinətləri, əməkhaqları artırıldı. Bu gün imzalanmış sərəncamla olan artımlar 660 min nəfəri əhatə edir və əsasən, əhalinin aztəminatlı hissəsinin sosial müdafiəsinin gücləndirilməsi məqsədi daşıyır". Bu fikirləri SİA-ya açıqlamasında millət vəkili Musa Qasımlı bildirib.

Deputat qeyd edib ki, bu il imzalanan sərəncamlarla artırılan əməkhaqları, pensiyalar və təqaüdlər cənab Prezidentin 2019-cü ildən bu yana imzaladığı, eyni zamanda, həyata keçirdiyi dördüncü sosial islahatlar paketidir: "Bütövlükdə bu paket bu il ərzində 2 milyona yaxın vətəndaşımızı əhatə edəcəkdir və ümumi maliyyə yükü 750 milyon manat təşkil edəcəkdir. Bu gün imzalanan sərəncama görə, şəhid ailələrinin, müharibə ilə əlaqədar olaraq əlilliyi olan şəxslərin, ümumi səbəbdən əlilliyi olan şəxslərin və Əfqanıstanda sovet ordusu tərkibində vəzifə borcunu yerinə yetirərkən həlak olan ailələrin sosial müdafiəsinin gücləndirilməsi, yaşa və ailə başçısına görə müavinət alan, 5 yaşından çox uşağı olan qadınlara verilən müavinət, doğuma və dəfn prosesinə aid müavinətin məbləği xeyli artırılacaq. Həmçinin, cənab Prezidentin bu il imzaladığı başqa bir sərəncama görə fərdi prezident təqaüdü alan dövlət və vətən qarşısında xüsusi xidmətləri olan şəxslərin də müavinəti xeyli artırılacaqdır. Elmi dərəcəsi olan və uzun illər elm müəssisəsində çalışan elmlər doktoru və namizədlərinin təqaüdləri artırılacaqdır. Bir sıra sahələrdə dövlət büdcəsində maliyyələşən təşkilatlarda çalışan şəxslərin əməkhaqlarının 15 faizinin artırılması nəzərdə tutulur. Bütövlükdə bu sərəncamın qəbul olunması və qüvvəyə minməsi cənab Prezidentin sosial sahədə apardığı islahatların tərkib hissəsidir, davamıdır və vətəndaşlarımızın sosial rifahının qorunmasına, inkişafına xidmət edəcəkdir".



Musa Quliyev həmçinin artım faizlərini də qeyd edib: "Son 4 ildə davamlı şəkildə sosial müdafiəyə ehtiyacı olan şəxslərin təqaüdləri, pensiyaları artırılır. Təbii ki, bütün bu proseslər vacib bir artımdır. Şəhid ailələrinin və müharibə əlillərinə son 4 ildə verilən müavinət 2,5 dəfə artıb. Ümumi əlilliyi və yaşa görə müavinət olan şəxslərin müavinətləri ilə 3 dəfə artıb. Həmçinin, uşağın doğulduğuna görə verilən müavinət 4,6 faiz artırılaraq 500 manata çatdırılıb. 1941-1945-ci il böyük vətən müharibəsi iştirakçılarına verilən müavinətlər 2,7 dəfə artırılıb".

**Banuçiçək**

# “Financial Times”: Ukraynanın taleyini dəyişə biləcək seçkilər




***Böyük Britaniyanın "Financial Times" qəzetində "Ukrayna müharibəsinin taleyini seçkilər müəyyənləşdirəcək" başlıqlı məqalə dərc olunub. Məqalənin müəllifi qəzetin redaktoru İvan Krastevdir. Novator.az məqaləni ingiliscədən çevirib təqdim edir. Bütün müharibələr danışıqlar masasında başa çatır, deyirlər. Ancaq tək danışıqlar masasında deyil, hərbi münaqişələr seçki məntəqələrində də başa çata, yaxud dondurula bilər.***



ABŞ-ın Vyetnamda, Fransanın Əlcəzairdə apardığı müharibəyə seçki son qoyub. Keçmiş Yuqoslaviya ərazisindəki müharibələri də sonlandıran əsas səbəb məhz 2000-ci ildə prezident Slobodan Miloşeviçin seçkidə uduzması olub.

2023-cü ildir. Rusiyanın 2022-ci ilin fevralından Ukraynada başladığı müharibə davam edir. Qarşıdan isə bir sıra mühüm seçkilər gəlir. 2024-cü ildə Rusiyada, Ukraynada, ABŞ-da və Tayvanda prezident seçkiləri keçiriləcək. Həmin seçkilər Ukrayna müharibəsinin taleyində elə 2023-cü ildən həlledici rol oynayacaq. 2024-cü il seçkilərinin nəticəsi yeni beynəlxalq nizamın formalaşmasına gətirib çıxara bilər.

2024-cü ilin martında həm Rusiyada, həm də Ukraynada prezident seçkisi olacaq. Vladimir Putinin öz hakimiyyətinin ömrünü uzatmaq məqsədilə neçə il əvvəldən qurub-qoşduğu seçki oyununu uduzacağını düşünmək çox çətindir. Ancaq onun "xüsusi hərbi əməliyyat" adlandırdığı uğursuz hərbi plan tam iflasa gətirsə - Ukraynada müharibəni uduzsa, yaxud münaqişəni əlverişsiz şərtlərlə dondursa, onda Putin təkcə Rusiyadakı azsaylı liberalların deyil, etimad göstərdiyi, öz ətrafında səfərbər edə bildiyi millətçilərin də müqaviməti ilə üzləşə bilər. Bu baxımdan Putinin 2024-cü il seçkisindən narahat olmağa əsası da var.

Putin iyirmi ildən çoxdur sürən hakimiyyəti dövründə hələ belə bir vəziyyətlə üzləşməyib. Cəbhədəki uğursuzluqla eyni vaxtda aparılacaq seçki kampaniyası Rusiyada amerikalıların və avropalıların çoxdan gözlədiyi situasiyanı yetişdirə, ictimai ovqatı Putin əleyhinə körükləyə bilər. Hərçənd bunun da rusiyalıları azadlığa çıxaracağına inanmaq çətindir. Ukraynaya gəlincə, bu ölkədəki ictimai rəy sorğularının nəticəsi prezident Vladimir Zelenskinin 2023-cü ildə qəbul edəcəyi strateji qərarlarda dərin iz buraxacaq. İctimai rəy Zelenskiyə hər hansı ərazini güzəştə getməyə imkan verməyəcək, yoxsa o, səs itirə bilər. Ukraynada 2024-cü ilə planlaşdırılan seçkini təxirə salmaq variantı da yoxdur.

Amma əhalisinin əksəriyyəti qaçqın və məcburi köçkün düşmüş ölkədə müharibə gedə-gedə azad və ədalətli seçki keçirmək də, hər şeyi bir yana qoyaq, logistik cəhətdən Vladimir Zelenski üçün ağır problemdir. Azad və ədalətli seçki isə avtoritar Rusiya ilə savaşan Ukraynaya demokratik imicin gücləndirilməsi baxımından hava və su kimi lazımdır. 2024-cü ildə Tayvanda planlaşdırılan prezident seçkisi də Rusiya-Ukrayna müharibəsinin dinamikasına təsir göstərəcək seçkilərdən biri ola bilər.

Tayvanda qatı millətçilərin qələbə çalacağından ehtiyatlanan Çin prosesi qabaqlamağa çalışa, adanı özünə birləşdirmək niyyətini gerçəkləşdirmək istiqamətində sərt addımlara gedə bilər. Görəsən Çin lideri Si Cinpin Rusiya-Ukrayna müharibəsindən hansı ibrəti götürüb? Bunu indiyədək anlamaq olmur. Cinpin Putinin müharibəyə başlamaqla səhv etdiyini düşünür, yoxsa hesab edir ki, Rusiya bu savaşa daha tez başlamalı idi? Sualın cavabı bəlli deyil.

COVİD-19 pandemiyasının öhdəsindən gələ bilmədiyi üçün Çin hökumətinin başı aşağıdır. Amerikalıları daima Tayvandan uzaq tutmağa çalışan Pekin belə bir məqamda Vaşinqtonu Avropa qitəsindəki münaqişənin, yəni Ukrayna müharibəsinin içində çapalamağa məcbur edəcəyi ümidi ilə Moskvaya dəstəyini gücləndirə bilər.

2024-cü ildə ABŞ-da keçiriləcək prezident seçkisi, eyni zamanda az da olsa Avropa Parlamentinə keçiriləcək seçkilər Ukrayna müharibəsinin gedişinə təsir göstərmək iqtidarındadır.

Amerika seçkisinin Ukrayna müharibəsinə təsiri dünyanın qalan yerlərindəki hərbi əməliyyatlara təsirindən qat-qat güclü ola bilər. Amerikalılar və avropalılar Kiyevə hərbi yardımı və maliyyə dəstəyini kəssələr, ukraynalılar Putinin ölüm maşını qarşısında duruş gətirə bilməzlər. Bu mənada ukraynalıların ABŞ-da Demokratlar Partiyasının prezident seçkisini Respublikaçılar Partiyasına uduza biləcəyi sarıdan ehtiyatlanması üçün ciddi səbəb var. Demokratlar seçkini uduzsalar Ukraynaya dəstəyin zəifləyib-zəifləməyəcəyi məsələsi respublikaçılardan kimin prezident postunu tutacağından asılı olacaq.

ABŞ-da kimin prezident postuna yiyələnəcəyi, Avropa Parlamentinə kimlərin seçiləcəyi isə bir xeyli dərəcədə Putinin Ukraynanın Donbas bölgəsində uğur qazanıb-qazanmayacağından, yaxud NATO-nun birbaşa müharibəyə qoşulub-qoşulmayacağından asılıdır. Sözsüz, bunu amerikalı demokratlar da, onların avropalı müttəfiqləri yaxşı bilirlər.

Rusiyanın cəbhə xəttində irəliləməsi, NATO-nun münaqişəyə daha geniş formada müdaxiləsi ABŞ-da prezident seçkisini respublikaçıların xeyrinə yönəldə bilər. Demokratlar, onların avropalı müttəfiqləri üçün ən arzuolunmaz məsələ seçicilərin Ağ evi üçüncü dünya müharibəsini qızışdırmaqda günahlandırması olardı. Cozef Baydenin və onun avropalı müttəfiqlərinin seçkilərdə qalib gəlməsi üçün ukraynalıların döyüş meydanında zəfər çalmaqda davam etməsi çox vacibdir.

Biz qarşılıqlı iqtisadi asılılığın və nüvə silahlarının yayılmasının çağdaş müharibələrin xarakterini necə dəyişdiyini bilirik. Lakin biz xüsusən dünyada indiki hədsiz qütbləşmə çağında qarşıdan gələn seçkilərin Ukrayna müharibəsinin tövrünü necə dəyişə biləcəyinin fərqinə varmırıq.

XXI əsrdə müharibəni udmaq üçün döyüş meydanında üstünlüyü ələ almaq heç də həmişə kifayət etmir. Siz seçkilərdə də qalib gəlməlisiniz, həm də təkcə öz ölkənizdə deyil.



# TÜRK POLİTOLOQ: “20 Yanvarda şəhid olan qardaşlarımızı heç vaxt unutmayacağıq”




***“28 il əvvəl Sovet İttifaqının dağılması ərəfəsində Qorbaçov müxtəlif hadisələri bəhanə edərək 50 minlik sovet ordusu ilə Azərbaycanda işğal ab-havası hazırladı ki, guya Ermənistanın maraqlarına xidmət edir. Quldur dəstələri, 1990-cı il yanvarın 20-də isə Bakıda rəsmi məlumatlara görə 133, qeyri-rəsmi olaraq 200-dən çox insanı qətlə yetiriblər. 400 nəfər itkin düşüb, 744 nəfər yaralanıb, yüzlərlə insan həbs edilib. Sovetlər erməniləri dəstəklədilər və dünyanın gözü qarşısında bu soyqırımı törətdilər". Bu sözləri SİA-ya açıqlamasında türk politoloq Hakan Aktürk deyib.***

Onun sözlərinə görə, Qərb bu vəziyyətə hər bir məsələdə olduğu kimi, ”sovetlərin daxili məsələsi” kimi baxır: ”Lakin sovet imperialistlərinin marionetləri olan ermənilər Azərbaycan türklərinin azadlıq inam və iradəsini, ”Bir kərə yüksələn bayraq bir daha enməz” inamını heç cür nəzərə ala bilmədilər. Bu gün bizim üçün böyük matəm, həm də böyük azadlıq bayramıdır. Azərbaycan və Türkiyə Vahidə Millətinin əkizləridir. Biz sadəcə dost ölkələr deyilik. Biz əkiz qardaşıq, iki azad və müstəqil dövlətik. Dostluqlar bir nöqtəyə qədərdir. Qardaşlıq isə əbədidir.

Bu gün Azərbaycan və Türkiyənin əbədi birliyi iqtisadi, siyasi, mədəni və strateji sahələrdə ən yüksək səviyyədədir. Hər iki qardaş ölkənin dəyərli liderləri buna böyük töhfə veriblər. Allah bu iki məmləkətin və bu iki insanın ömrünü uzun etsin. Onlar heç bir mühitdə digərinin yoxluğunu hiss etdirmir. Türkiyənin olmadığı bir toplantıda cənab İlham Əliyev ”burada Türkiyə yoxdursa, mən varam” deyir.

Digər tərəfdən Rəcəb Tayyib Ərdoğan hər beynəlxalq görüşdə Azərbaycandan soruşanda prezidentimiz ”Azərbaycanın bütün məsələləri bizim də məsələlərimizdir” deyir”.

Hakan Aktürk sözlərinə belə davam edib: ”20 Yanvar 1990-cı ildə baş verən hadisələr Türkiyədə dərin ağrılarla hiss olundu. O zaman bu qara günün ağrısı Məmməd Aslanın ”Ağla Qərənfil” adlı şeiri ilə daha geniş kütlələrə çatdı. Bizim qardaşlığımız sümük qardaşlığıdır. Burada birimiz incinsək, Azərbaycandakı qardaşlarımız da eyni ağrıları çəkəcəklər. 20 yanvarda şəhid olan qardaşlarımızı heç vaxt unutmayacağıq. Onların xatirəsini yad etmək məsuliyyətini üzərinə götürənlərin hər birinə ayrı-ayrılıqda təşəkkür edirəm.

Qırğından illər keçməsinə baxmayaraq, dünya bu hadisəyə hələ də susur. Bir daha belə qara və qanlı günləri yaşamamaq üçün bunu dünyaya bəyan etməkdə qərarlıyıq. Biz də Xocalını dünyaya elan etməliyik ki, eyni şeylər bir daha təkrarlanmasın. Türkiyə ilə Azərbaycan arasında münasibətlər möhkəm dostluq deyil. Aramızdakı bağ sivilizasiyamızdan gələn qardaşlıq bağıdır.

20 yanvar can Azərbaycanın müstəqilliyi uğrunda şəhid olan azərbaycanlı qardaşlarımızın xatirəsini rəhmətlə anırıq”.

***Ayşən Vəli***

# Ölkəmizdə hüquqi dövlət qurulub, vətəndaş cəmiyyəti bərqərar olub

***Qanunların aliliyini təmin edən dünyəvi, hüquqi dövlət qurmaq, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq hər bir cəmiyyət üçün arzuolunandır. Qürurverici haldır ki. Azərbaycanda qanunun aliliyini təmin edən hüquqi dövlət qurulub və vətəndaş cəmiyyəti bərqərar olunub. Bütün bunlar ölkəmizdə demokratiyanın olduğunu, demokratik cəmiyyətin mövcudluğunu təsdiq edir və bununla fəxr etməyə dəyər.***

Demokratiya hər bir insana, ailəyə, kollektivə, cəmiyyətə özünü realizə etməyə, normal həyata, yaradıcılığa, öz tələbatını ödəməyə, rifahının artırılmasına, harmonik inkişafa imkan yaradır. Demokratik cəmiyyətdə idarəetmə və təşkilatçılıq aktualdır. Ona görə ki, demokratik cəmiyyətdə bütün insanlara bərabər hüquq və azadlıqlar verilir. Eyni zamanda demokratik cəmiyyətdə, qanunların aliliyini təmin edən hüquqi dövlətdə hər bir vətəndaşın konstitusion vəzifələrini yerinə yetirməsi tələb olunur. Bu cəmiyyətdə ilk olaraq hüquqi dövlət quruculuğu prosesi gedir. Hüquqi dövlətin formalaşması isə prosesi həyati tələbatdır. Bu anlayış yalnız dövlət çərçivəsi daxilində məhdudlaşmır, eyni zamanda bütün cəmiyyətə aiddir.

Azərbaycanın suverenliyi, müstəqilliyi, dövlətin hüquqi əsaslarının möhkəmlənməsi mövcud dövlət və hüquq institutlarının keyfiyyət dəyişikliyinə təsir göstərərək hüquqi dövlətin və vətəndaş cəmiyyətinin yaradılması, cəmiyyət həyatının bütün sahələrində hüquq normalarının realizəsi problemlərini ön plana daşıdı. Ümummilli Lider Heydər Əliyev göstərirdi ki, "vətəndaş cəmiyyəti yaradılması və möhkəmləndirilməsi, demokratikləşmə prosesinin möhkəmlənməsi, hüquqi dövlətin qurulması sadəcə olaraq bir şüar yaxud da bir niyyət deyil, Azərbaycanın inkişafının başlıca şərtidir". Hüquqi dövlətin formalaşması ictimai həyatda köhnəlmiş demokratik stereotipləri aradan qaldırdı. Hüquqi dövlətin, dövlətçiliyin əsasını təşkil edən dövlət hüquq institutlarının formalaşması yalnız demokratik şəraitdə mümkün olmaq qənaətinə gəlməyə əsas verir. Artıq demokratik cəmiyyət və hüquqi dövlət ideyası bizim vətəndaşların təfəkküründə və şüurunda tədricən transformasiya edilir və adaptasiya olunur, hansı ki, onlar bunu daha yaxşı dərk etməyə başlayırlar. Müasir dövrdə strateji inkişaf xətti kimi demokratik cəmiyyət quruculuğu və bazar iqtisadiyyatı yolunu seçən Azərbaycan Respublikası dünya təcrübəsini uğurla sınaqdan keçirir, ümumbəşəri dəyərlərdən faydalanmağa çalışır, özünün geniş iqtisadi potensialını hərəkətə gətirmək məqsədilə inkişaf etmiş ölkələrin qabaqcıl texnologiyasını və maliyyə imkanlarını cəlb edir, onlarla qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrini inkişaf etdirir.

Bir qayda olaraq dövlət cəmiyyətin, cəmiyyət isə dövlətin köməyi olmadan köklü məsələləri həll edə bilməz. Vətəndaş cəmiyyətinin inkişaf etmiş strukturu olmadan dövlət demokratik ola bilməz. Demokratik cəmiyyətin yeganə ümumi siyasi hakimiyyəti hüquqi dövlətdir. O ümumi bəşəri sərvət sayılmalıdır. Hüquqi dövlətin qanunvericilik dövləti olması aksioma kimi qəbul edilməlidir və edilir də. Konstitusiyanın qəbulu isə hüquqi dövlətin formalaşması prosesinin mühüm tərkib hissəsidir. Azərbaycanın yeni Konstitusiyasının preambulasında qanunların aliliyini təmin edən hüquqi dövlətin və vətəndaş cəmiyyətinin qurulması xalqın niyyətlərindən biri kimi təsbit olunaqdadır.

Hüquqi dövlətin nəzəri konsepsiyasının və praktikasının uzun tarixi var. Hüquqi dövlət termini alman ədəbiyyatında XIX əsrin əvvəllərində Velkerin, Molyanın və başqalarının əsərlərində göstərilmiş, sonralar geniş yayılmağa başlamışdır. Hüquqi dövlət nəzəriyyəsinin fəlsəfi əsaslarını isə klassik alman fəlsəfəsinin banisi Kant veribdir. Onun konsepsiyasında mərkəzi yeri insan və şəxsiyyət tutur. Kanta görə dövlət hüquqi qanunlara tabe olan insan çoxlugudur. Dövlət yaşayır və öz fəaliyyətini həyata keçirəndə ilk növbədə ümumi məqsədlərə və dəyərlərə əsaslanır. Dövlət yaranır və mövcud olur ki, onun fəaliyyəti cəmiyyətin əsas maraqlarına cavab versin və insanların öz tələblərini təmin etməsinə imkan yaratsın. Dövlətin rifahı mükəmməl hüquqdadır. Dövlət Konstitusiya hüququ əsasında hərəkət edir və xalqın ümumi iradəsini ifadə edirsə, o hüquqidir, orada vətəndaşların şəxsi azadlıqları, vətəndaş hüquqları məhdudlaşdırıla bilməz. Dövlətin təyinatı təkmilləşdirilmiş hüquqdadır, onun quruluşunun və rejiminin hüquqa maksimum uyğunluğudur. Elə bu müddəalara görə Kant hüquqi dövlət nəzəriyyəsinin banisi sayılır.






Beləliklə, hüquqi dövlət-ictimai həyatın qanun, hüquqi prinsiplər və vasitələr əsasında qurulmasıdır. Ənənəvi olaraq, hüquq müəyyən olunmuş prosedura ilə qəbul olunan qanundan əvvəl gəlir və o qanunla təsbit olunduqda hüquqi güc alır, dövlət strukturu vasitəsilə realize olunur. Hüquq yüksək effektli və məqsədəuyğun tənzimləyici olmaqla cəmiyyətdə köklü siyası, iqtisadi, sosial məsələlərin həllinə kömək edir. Dövlət və hüquq cəmiyyətin iqtisadi bazısı üzərində üstqurumun müxtəlif hissələridir. Hüquq insanların ümumi iradəsi ilə öz ictimai həyat fəaliyyətinin qaydaya salınmasında tələb və maraqlarını, şəxsiyyətin hüquq və azadlıqlarını, humanizmi, sosial ədaləti ifadə edir. Hüquqi dövlət konsepsiyası qanunun aliliyi onun hüququn yüksək prinsiplərinə cavab verməsi, idarəedən və idarəolunan üçün məcburi olması, bütün insanların öz davranışında ona əməl etməsi, hüququn hakimliyi və başqa fundamental amillərə əsaslanır.

Siyasi cəmiyyətdə cəmiyyət və hüquqi dövlət münasibətləri prizmasından baxılması maraq kəsb edir. Hüquqi ədəbiyyatda və rəsmi sənədlərdə hüquqi dövlət və vətəndaş cəmiyyəti birgə ifadə olunur. Hüquqi dövlətin və vətəndaş cəmiyyətinin qurulması insanların ictimai şüurundan, mədəni səviyyəsindən və maddi rifahından çox asılıdır. Vətəndaş cəmiyyətinin inkişafı dövlətin inkişafından sonra gəlsə də, o ailə və dövlət arasında ayrıca bölmədir, çünki onun mövcud olması müstəqil dövlətin olmasının tələb edir. Vətəndaş cəmiyyətinin yaranması hüquqi dövlət və siyasi demokratiya ilə sıx əlaqəlidir. Vətəndaş cəmiyyəti, bazar iqtisadiyyatı və siyasi demokratiya tarixi fenomen olub müəyyən inkişaf mərhələsində baş verir. Hegel hesab edirdi ki, vətəndaş cəmiyyəti və dövlət sərbəst institutlar kimi eyniyyət təşkil edir. Onun fikrincə vətəndaş cəmiyyətində özəl, dövlətdə isə ümumi maraqlar cəmləşir.

Vətəndaş cəmiyyətinin yaranmasının bir aspekti də insan və vətəndaş hüquqlarının ayrılmasıdır. Əgər insan hüquqları vətəndaş cəmiyyəti tərəfindən təmin olunursa, vətəndaş hüquqları hüquqi dövlət tərəfindən təmin olunur. Hər iki halda söhbət şəxsiyyətin hüquqlarından gedir. Birinci halda ayrı-ayrı insanın həyatı, mülkiyyət və öz imkanlarını realizə etmək hüququ nəzərdə tutulursa, ikinci halda konkret dövlətin vətəndaşı kimi onun siyasi hüquqa malik olması nəzərdə tutulur. Azərbaycan Konstitusiyasında insan və vətəndaş hüquq və azadlıqlarına və vətəndaşların vəzifələrinə geniş yer verilibdir. Konstitusiyanın maddələrinin təxminən hər üçüncüsü insan və vətəndaş hüquq və azadlıqlarını və vətəndaş vəzifələrini əks etdirir, Azərbaycan Respublikasının özünü idarə orqanları, vəzifəli şəxsləri tərəfindən pozulan insan hüquqları və azadlıqlarının bərpa edilməsi üçün Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili vəzifəsi, yəni "Ombudsman" təsis edilibdir.

Azərbaycan demokratik cəmiyyət quruculuğu sahəsində böyük inkişaf yoluna məhz müstəqilliyini bərpa etdikdən sonra qədəm qoyub. Bu yola qədəm qoyan ölkəmiz bu vaxta qədər böyük inkişaf yolu keçib. Ölkəmizdə mütərəqqi islahatlar qısa zaman çərçivəsində aparılıb və bunun sayəsində də Azərbacanda demokratik və hüquqi dövlət qurulub. İctimai-siyasi sabitlik, əmin-amanlıq məhz hüquqi dövlət yaradılması fonunda formalaşıb, xalqımızın xoşbəxt gələcəyi üçün bütün təminatlar yaradılıb. Azərbaycanın hal-hazırda inkişaf etmiş ölkələr arasında xüsusi yeri və böyük nüfuzu olması da təsadüfi deyil və qeyd etdiyimiz mütərəqqi islahatlar, demokratik cəmiyyət quruculuğu sayəsində mümkün olub.

XX əsrin 90-cı illərində Ümummilli Lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonrakı ölkəmizdə vətəndaş cəmiyyəti institutlarının formalaşması prorsesi başlayıb. Məhz Ulu Öndərin hakimiyyətə qayıdışı ilə ölkəmizdə mövcud olan xaosun, qarışıqlığın, hərcmərcliyin, dərəbəyliyin, qanunsuzluğun qarşısı alınıb, ölkədə vətəndaş cəmiyyətinin formalaşmasına, inkişafına imkan yaradılıb. Elə ona görə də cəsarətlə deyə bilərik ki, Azərbaycanın müasir, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır.

Vətəndaş cəmiyyətinin inkişafına hal-hazırda ölkə rəhbəri, cənab Prezident İlham Əliyev xüsusi diqqət ayırır. Təməli Hedər Əliyev tərəfindən qoyulan dövlətçilik təliminə uyğun olaraq milli mənafenin, dövlətçilik maraqlarının üstün tutulması Azərbaycan Prezidenti cənab İlham Əliyevin yürütdüyü siyasətin qayəsini təşkil edir. Azərbaycan Prezidentinin 7 dekabr 2011-ci il tarixli sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" insan və vətəndaş hüquqlarının müdafiəsi sahəsində aparılan ardıcıl və məqsədyönlü siyasətin parlaq nümunəsidir. Azərbaycan Prezidentinin siyasətinin mərkəzində insan amili durduğu günümüzün reallığıdır. Reallıq odur ki, Azərbacanın dövlət siyasəti vətəndaşın sosial rifahının, təhlükəsiz yaşayışının təmin edilməsinə xidmət edir.

***İnam Hacıyev***

# "Siyasi partiyalar haqqında" yeni Qanun daha geniş imkanlar yaradacaq"

***"Tarixi Zəfərimizin reallıqları həyatımızın bütün sahələrində yeniləşmənin, təkmilləşmənin qaçılmaz olduğunu bariz şəkildə ortaya qoyur. Tarixi Zəfərimizdən sonra Azərbaycana hansı sahədən baxsaq böyük yeniliyin şahidi olarıq. Yenicə qüvvəyə minmiş "Siyasi partiyalar haqqında" Qanun cəmiyyətdə geniş müzakirə olunmaqdadır.***



Ümumilikdə sözügedən Qanun hansı yeniliklərə yol açacaq? Hər yeni sənəd təbii ki, qarşıdakı dövr üçün hədəfləri, çağırışları özündə ehtiva edir. Bu baxımdan hər bir ölkənin inkişafında, həmçinin xarici dövlətlərlə ikitərəfli əlaqələrinin möhkəmlənməsində mühüm rol oynayan siyasi partiyaların fəaliyyətinin təkmilləşdirilməsi Azərbaycan iqtidarının diqqət götərdiyi əsas məsələlər sırasındadır. Azərbaycanda 50-dən artıq siyasi partiyanın qeydiyyatdan keçməsi, onların fəaliyyətləri üçün normal şəraitin yaradılması da demokratik inkişafın təqdimatında öz sözünü deyir." Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə KİV-ə açıqlamasında bildirib.

Vüqar Rəhimzadə qeyd edib ki, bu günədək siyasi partiyaların fəaliyyətini tənzimləyən "Siyasi partiyalar haqqında" əvvəlki Qanun 1992-ci ildə qəbul edilmişdi: "Sənədin qəbulundan 30 il vaxt keçir. Bu illər ərzində Azərbaycanın qazandığı uğurların xronologiyası siyasi sistemdə aparılan islahatların real nəticələrini ortaya qoyur. Bircə bu faktı qeyd edə bilərik ki, bu günədək əvvəlki Qanuna 27 dəfə əlavə və dəyişiklik edilib. Həmin Qanun təbii ki, qəbul olunduğu dövrün reallığını əks etdirirdi. Bu, o dövr idi ki, Azərbaycan dövlət müstəqilliyini yenicə bərpa etmişdi. Təbii ki, o zamanın hədəfləri tamamilə fərqli idi. İllər keçdikcə inkişaf yolunda inamla irəliləyən Azərbaycanın ictimai-siyasi həyatında dünyanı heyrətləndirən yeniliklər baş verir, yeni tələblər qarşıya qoyulur. Hər zaman çağırışları yüksək səviyyədə cavablandıran Azərbaycanın dövlətinin mövcud qanunlara mütəmadi olaraq əlavə və dəyişikliklər etməsi də bu tələblərdən irəli gəlirdi."

"Artıq iki ildən çoxdur ki, tarixi Zəfərimizin reallıqlarını yaşayırıq. Bu reallıqlar yeni çağırışları gündəmə gətirir. Dünya tarixi Zəfərimizdə Azərbaycan xalqının birliyinin, vətəndaş həmrəyliyinin müstəsna rol oynadığının şahidi oldu. 44 günlük müharibədə 50-dən artıq siyasi partiya həyata keçirilən siyasətə dəstəyini Prezident İlham Əliyevin ətrafında sıx birləşməsi ilə ifadə etdi. 50-dən artıq siyasi partiyanın qəbul etdiyi birgə Bəyanatda dövlət başçısı İlham Əliyevin siyasətinin bugününə və gələcəyinə böyük inam ifadə edildi. Tarixi Zəfərimizin reallıqları əsasında keçirilən Yeni Azərbaycan Partiyasının VII qurultayında 6 siyasi partiyanın Yeni Azərbaycan Partiyasına qoşulması da siyasi dialoq mühitinin inkişafında mühüm addım kimi dəyərləndirildi",- deyə YAP Xətai rayon təşkilatının sədri bildirib.

Vüqar Rəhimzadə xatırladıb ki, parlamentdə təmsil olunan bütün siyasi partiyaların nümayəndələri "Siyasi partiyalar haqqında" yeni qanun layihəsinin hazırlanması üçün Milli Məclisin sədrinə müraciət etdilər: "Həmin müraciətdə ölkəmizin müasir inkişaf reallıqlarına və dövrün tələblərinə cavab verən yeni qanunun hazırlanmasının vacibliyi öz əksini tapmışdı. 50-yə yaxın siyasi partiya 250-dən çox təkliflərini rəsmi qaydada təqdim etdilər. Sənədin hazırlanmasında Avropanın qabaqcıl ölkələrinin təcrübəsi, milli-mənəvi dəyərlərimizin qorunub saxlanması, ölkədə mövcud olan siyasi sistem nəzərə alınmaqla, Avropa Şurasının Venesiya Komissiyasının siyasi partiyaların fəaliyyətinin tənzimlənməsi ilə bağlı tövsiyələri nəzərdən keçirildi. Hər bir ölkənin inkişafında, beynəlxalq mövqeyinin möhkəmləndirilməsində, dünyaya təqdimatında siyasi partiyaların rolunu önə çəkən dövlətimiz daim siyasi partiyaların fəaliyyəti üçün bütün imkanların yaradılmasına səy göstərir. Yeni Qanunda partiyaların dövlət büdcəsindən maliyyələşməsinin prioritet məsələ kimi öndə saxlanılması da bu diqqət və qayğının bariz nümunəsidir."

"Bu diqqət və qayğının əyani təzahürlərini görmək üçün "Siyasi partiyalar haqqında" Qanunda yer alan məqamlara diqqət yetirmək kifayətdir" söyləyən YAP Xətai rayon təşkilatının sədri bildirib ki, yeni sənədin tələblərinə uyğun olaraq hər kəs bərabər şəkildə siyasi partiya yaratmaq və ya mövcud siyasi partiyaya daxil olmaq hüququna malikdir: "Bu hüquq yalnız qanunla müəyyən edilmiş hallarda məhdudlaşdırıla bilər. Dövlət qeydiyyatından keçmiş bütün siyasi partiyaların sərbəst fəaliyyətinə təminat verilir. Dövlət büdcəsinin vəsaiti hesabına siyasi partiyalara maliyyə yardımı göstərilir. Yeni Qanunda hansı hallarda siyasi partiyaların təsis edilməsinə və fəaliyyətinə yol verilmədiyi də öz əksini tapıb. Əvvəlki Qanundan fərqli olaraq bundan sonra siyasi partiyaya ictimai-siyasi nəşrlərin, digər təbliğat və təşviqat materiallarının hazırlanması və satışı ilə bağlı olan sahibkarlıq fəaliyyəti ilə məşğul olmağa icazə verilir. İcazə verilmiş sahibkarlıq fəaliyyətinin növləri ilə məşğul olmaq, həmçinin "Media haqqında" Qanuna uyğun olaraq çap mediasını təsis etmək üçün siyasi partiya təsərrüfat cəmiyyətləri yarada bilər və ya onlarda iştirak edə bilər. Heç kəs hər hansı siyasi partiyaya daxil olmağa və ya onun üzvlüyündə qalmağa məcbur edilə bilməz. Qanunda siyasi partiyanın maliyyələşdirilməsində əsas məqamlar da yer alır. Ümumilikdə yeni Qanun müasir dövrün bütün reallıqlarını, tələblərini özündə əks etdirir."

Vüqar Rəhimzadə vurğulayıb ki, "Siyasi partiyalar haqqında" yeni Qanun ümumilikdə siyasi partiyaların normal fəaliyyətinə daha geniş imkanlar yaradacaq. Ümumi qənaət budur ki, nə qədər siyasi partiya yaradılsa da onların fəaliyyətində bir prinsip əsas götürülməlidir: Dövlətə, dövlətçiliyə xidmət.

# Soledar şəhəri kimin əlindədir: Rusların, yoxsa ukraynalıların?



***Rusiya Müdafiə Nazirliyi yanvarın 12-də Donetskin Soledar şəhərinə nəzarəti tamamilə ələ keçirdiklərini açıqlayıb. Rusiya Müdafiə Nazirliyinin mətbuat katibi İqor Konaşenkov Rusiya ordusunun Ukraynadakı müharibədəki hərəkətləri ilə bağlı açıqlama verib. S?A-nın əldə etdiyi məlumata görə, Donetsk vilayətinin Soledar şəhərindəki vəziyyətlə bağlı məlumat verən İqor Konaşenkov deyib: "Yanvarın 12-də axşam Donetsk istiqamətində uğurlu hücum əməliyyatlarının davam etdirilməsi üçün vacib olan Soledar şəhərinin azad edilməsi başa çatıb".***

Konaşenkov bəyan edib ki, Soledara tam nəzarət etməklə, cə-



nub-qərbdəki Bəhmut şəhərində Ukrayna qoşunlarının təchizat marşrutları kəsiləcək, sonra isə Ukrayna Silahlı Qüvvələri tələyə düşəcək. Soledarın ələ keçirilməsi Rusiya qüvvələrinin digər hissələrilə Ukrayna mövqelərinə davamlı hücumları ilə mümkün olmuşdur.

Rusiya hava qüvvələrinin Soledara qarşı əməliyyatlar zamanı Ukrayna əsgərlərinə havadan dəstək verən 3 döyüş təyyarəsi və bir helikopteri vurduğunu qeyd edən Konaşenkov Rusiya hava hücumundan müdafiə sistemlərinin "HIMARS", "Olha", "Uraqan" raket



sistemlərindən atılan 9 raketi də məhv etdiyini bildirib. Rusiya hava-desant qüvvələrinin mövqelərdə hakim yüksəklikləri ələ keçirərək şəhəri şimaldan və cənubdan mühasirəyə aldığını qeyd edən Konaşenkov Ukraynanın idarəetmə sistemini elektron döyüş maşınları ilə sıxışdırdıqlarını vurğulayıb.

"Rusiya hərbi hissələrinin həyata keçirdiyi fəaliyyətlər kompleksi hücum dəstələrinin Soledarı azad etmək üçün uğurlu əməliyyatları təmin etdi. Təkcə son 3 gündə Soledar şəhəri yaxınlığında 700-dən çox Ukrayna əsgəri və Ukrayna Silahlı Qüvvələrinin 300-dən çox silahı zərərsizləşdirilib", - deyə İqor Konaşenkov qeyd edib.

Ukrayna Baş Qərargahının Şərq qrupunun sözçüsü Sergey Çerevatiy isə bəyan edib ki, Rusiyanın Donetskdəki Soledar şəhərini ələ keçirməsi ilə bağlı məlumatlar həqiqətə uyğun deyil. SİA bu barədə Ukrayna saytlarına istinad edir. "Şəhərdə qarşıdurma davam edir", deyə bildirən Çerevatiy məbuata açıqlamasında deyib ki, Rusiya Müdafiə Nazirliyinin Soledar şəhərini tamamilə nəzarətə götürdükləri barədə bəyanatı doğru deyil. Şəhərdə döyüşlər gedir. Təfərrüat verə bilmərəm.

Ukrayna əsgərlərinin şəhəri müdafiə etməyə davam etdiyini qeyd edən Çerevatiy şəhərin qarşı tərəfin nəzarətində olması ilə bağlı açıqlamaları "Rusların xüsusilə Ukrayna cəmiyyətində məyusluq yaratmaq üçün qəsdən çıxardığı səs-küy" kimi qiymətləndirib. Xatırladaq ki, Rusiya qoşunları fevralın 24-də Ukraynaya hücuma keçib.

# 2023-CÜ İL - Heydər Əliyev liderliyinin qalibiyyət və zəfər rəmzi



***Artıq ölkəmiz yeni - 2023-cü ilə uğurla qədəm qoymaqla tariximizə xüsusi bir əlamətdarlıqla yazılacaq. Belə ki, mayın 10-da xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilə bağlı Azərbaycan Respublikası Prezidentinin 29 sentyabr 2022-ci il tarixli sərəncamı ilə 2023-cü il "Heydər Əliyev İli" elan edilib. Böyük şəxsiyyətlərin yubileylərinin dövlət səviyyəsində qeyd olunması, bu münasibətlə müxtəlif tədbirlərin təşkili dünyanın müxtəlif ölkələri üçün xarakterikdir. Bütöv bir ilin ayrı-ayrı şəxsiyyətlərin şərəfinə adlandırılması isə Azərbaycanın yaratdığı parlaq örnəkdir və bu, xalqımızın ictimai fikir, milli dövlətçilik tarixində mühüm xidmətləri olmuş böyük şəxsiyyətlərimizə ölkə rəhbərimizin yüksək ehtiramından irəli gəlir.***



## DAVAMLI YÜKSƏLİŞ YOLUNDA İNAMLA İRƏLİLƏYƏN MÜASİR AZƏRBAYCAN HEYDƏR ƏLİYEVİN HƏYAT AMALININ TƏNTƏNƏSİDİR

Sərəncamda 2023-cü il mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olduğu qeyd edilir. Vurğulanır ki, Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir. Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Sərəncamda, həmçinin o da deyilir ki, Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.

## 1969-CU İL - AZƏRBAYCANIN YÜKSƏLİŞİNİN, XALQIN DA XOŞBƏXTLİYİNİN BAŞLANĞICI OLDU

Tarix ən ədalətli hakimdir. Və bu gün Zəfərə gedən yolun əsasında tarixi şəxsiyyət, dahi Heydər Əliyevin ölməz ideyaları dayanır. Bu 1969-cu il iyulun 14-ü ümummilli lider Heydər Əliyevin respublikamıza rəhbərlik etməyə başlaması kimi son dərəcə qiymətli bir hadisə ilə əbədiləşmişdir. Həmin dövrdə Azərbaycanın siyasi, sosial-iqtisadi və mədəni durumu heç də ürəkaçan deyildi. O zamankı sovetlər birliyinin ən ucqar respublikalarından biri kimi səciyyələnən Azərbaycanda idarəetmədə çoxlu nöqsanlara yol verilmiş, iqtisadiyyat geri qalmış, sosial-mənəvi mühit şəffaflıqdan uzaq düşmüşdü. Belə bir vaxtda Heydər Əliyevin respublikanın ali vəzifəsinə - Azərbaycan Kommunist Partiyasının Birinci Katibi seçilməsi tariximiz və taleyimiz, Vətənimiz və xalqımız üçün, sözün əsl mənasında, dönüş və xilas, möhtəşəm tərəqqi və yüksəliş erasının əsasını qoydu və xalqın etimadını Ondan başqa heç kim doğrulda bilməzdi. Belə bir dahi insanın Azərbaycanda rəhbərliyə başlaması respublikanın xilası üçün yeganə düzgün yol idi. 1969-cu ildən başlanan böyük quruculuq və yüksəliş mərhələsi qısa müddətdə Azərbaycanı bütün sahələrdə geniş tərəqqi yoluna çıxardı. Bakıda o dövr üçün nadir müəssisələr - məişət kondisionerləri, dərin dəniz özülləri zavodları, paytaxtımıza bu gün də yaraşıq verən ictimai binalar - "Gülüstan" sarayı, Heydər Əliyev Sarayı tikildi. Həmçinin, Yeni Əhmədli, Günəşli kimi nəhəng yaşayış massivləri salındı. Kənd təsərrüfatı məhsulları istehsalı dəfələrlə artdı. Bunun nəticəsi olaraq, əhalinin güzəranı yaxşılaşdı, bir çox sosial layihələr həyata keçirildi. Belə ki, 1970-1982-ci illərdə respublikada 250 yeni müəssisə, istehsalat və sex tikilmiş, neftayırma sənayesi müəssisələri tamamilə yenidən qurulmuş, iri elektron, elektrotexnika, radiotexnika, cihazqayırma sənayesi zavodları inşa olunmuşdur. Nəticədə, göstərilən müddətdə Azərbaycanda sənaye istehsalı 2,7 dəfə artmışdır. 1970-1982-ci illərdə kənd təsərrüfatının məcmu məhsulu 2,6 dəfə çoxalmış, əmək məhsuldarlığı 2,2 dəfə yüksəlmişdir. Əsaslı dövlət vəsaiti qoyuluşunun 1 manat artımı hesabına əlavə olaraq 3,5 manatlıq məhsul alınmışdır. Göstərilən dövrdə milli gəlir 2,6 dəfə çoxalmışdır. Azərbaycan büsbütün yenidən tikilib qurulmuş, kənd və qəsəbələr salınmış, fabrik və zavodlar tikilmiş, yaşayış məntəqələrinin siması tamamilə dəyişmişdir. Yetmişinci illərədək Azərbaycan kəndi əsasən çiy kərpicdən və palçıqdan tikilmiş komalardan ibarət idi. Kəndlinin gəliri az olduğundan güzəranı ağır keçirdi. Kənd təsərrüfatının yüksəlişi bu sahədə inqilabi dəyişiklik yaratdı. Yeni texnika və aqrotexniki qaydaların genişmiqyaslı tətbiqi hesabına əmək məhsuldarlığı və məhsul istehsalı bir neçə dəfə artdı, təsərrüfatların və əməkçilərin gəliri qat-qat çoxaldı. Ölkə paytaxtı Bakı şəhəri də yeni mikrorayonlar, park və xiyabanlar, küçə və meydanlar hesabına böyüyərək gözəlləşdi. "Gülüstan" və "Respublika" sarayları, Prezident sarayı və Milli Məclisin binası, "Moskva", "Azərbaycan", "Abşeron" mehmanxanaları, Əl oyunları sarayı və Olimpiya İdman Kompleksi, metro stansiyaları və digərləri həmin dövrdə tikilmiş, N.Nərimanova, C.Cabbarlıya, Nəsimiyə, H.Cavidə və digər görkəmli həmvətənlərimizə abidələr qoyulmuş, onlarla ədəbiyyat və incəsənət xadiminə, sənətkara fəxri adlar, dövlət mükafatları verilmişdir. Ulu öndər Heydər Əliyev bütün sahələrdə olduğu kimi, ordu sıralarında da milli kadrların yetişməsinə və yerləşməsinə çalışırdı. Ölkəyə birinci rəhbərliyi dövründə Azərbaycanda fəaliyyət göstərən hərbi məktəblərlə maraqlanan ümummilli lider orada nəinki təhsil alanların, hətta dərs deyənlərin sırasında belə azərbaycanlıların təktük olduğunu bilmişdi. Çox keçmədən Ulu öndərin təşəbbüsü və şəxsi himayəsi altında Cəmşid Naxçıvanski adına hərbi təmayüllü məktəb açıldı. Tezliklə bu məktəb böyük şöhrət qazandı.



Yeniyetmələr həvəslə burada oxumağa gəlir, sonra təhsillərini keçmiş SSRİ-nin müxtəlif ali hərbi məktəblərində uğurla davam etdirirdilər. Qarabağ uğrunda döyüşlərdə məktəbin müdavimləri böyük şücaət göstərdi, bir çoxu Azərbaycanın Milli Qəhrəmanı fəxri adına layiq görüldü. Müstəqillik dövründə milli ordu quruculuğunda vaxtilə C.Naxçıvanski adına hərbi təmayüllü məktəbi bitirən zabitlərin əməyi böyük olmuşdur. Onlar bu gün də orduda ləyaqətlə xidmət edir, Heydər Əliyev ideyalarına sadiqliklərini nümayiş etdirirlər.

## 15 İYUN MİLLİ QURTULUŞ GÜNÜNDƏN QƏLƏBƏYƏ: ZƏFƏR TARİXİMİZİN BAŞLANĞICI

Dünyada çox az düha sahibinə tərk etdiyi mübarizə meydanına bir daha geri dönmək, tarixi qayıdış etmək hünəri qismət olub. Tarixi qayıdış bəşər övladına nəsib olan dühalıq siması müstəsna müdriklik keyfiyyətidir. Şəxsiyyətin iradə tükənməzliyi insan gücünün dönməzlik ifadəsidir. Tarixi qayıdış xalqa, Vətənə bağlılığın, saflıq və müqəddəsliyin doğurduğu ecazkar qüvvə, əlçatmaz yüksəklikdir. Tarixi qayıdış xalqın gücünün və əzəmətinin dirçəlişi deməkdir. Bəli, dahi şəxsiyyət, dünya şöhrətli ictimai-siyasi xadim Heydər Əliyevin tarixi qayıdışı ilə ölkəmiz əzəmətli dəyişikliklərə, milli dövlətçilik ideyalarının gerçəkləşdirilməsinə nail oldu. Bu, bir həqiqətdir. Məhz Ulu Öndərin səyi nəticəsində Azərbaycan dönməz müstəqilliyə, inkişafa, tərəqqiyə qədəm qoydu. O, bütün ömrünü xalqımızın firavan həyatına, xoşbəxt gələcəyinə sərf etdi, milli dövlətçiliyimizin banisi kimi Azərbaycan xalqının Ümummilli Lideri oldu.

Milli Məclisdə millət vəkilləri 15 iyun tarixinin təqvimə Azərbaycanın Qurtuluş günü kimi salınması təklifi ilə çıxış etdilər və Məclis bu təklifi bəyəndi. O vaxtdan ulu öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı Milli Qurtuluş Günü kimi qeyd edilir. Bu tarixi hadisədən sonra - 15 iyun Azərbaycanın Milli Qurtuluş Günü oldu. Ən əsası isə, 2021-ci il 15 iyunda "Bir millət, iki dövlət"in Liderləri - Azərbaycan Prezidenti cənab İlham Əliyev və Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşa şəhərində müttəfiqlik münasibətləri haqqında "Şuşa Bəyannaməsi"ni imzalamaları ikiqat bayram oldu. Milli Qurtuluş Günündən başlanan yüksəlişin zirvəsi tarixi Zəfərimizdir və bu gün hər birimiz, o cümlədən bir gənc olaraq qalib bir ölkənin vətəndaşı olaraq qürurluyuq.

## HEYDƏR ƏLİYEV İDEYALARININ İŞIĞINDA DİNAMİK İNKİŞAF EDƏN, ƏRAZİ BÜTÖVLÜYÜ BƏRPA OLUNAN AZƏRBAYCAN

Bir sözlə, bu gün ulu öndər Heydər Əliyev siyasətinin davamçısı Prezident İlham Əliyev son 19 ildə ümummilli liderin ideyalarının işığında böyük inkişaf yolu keçib. "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Bu, sadəcə, Heydər Əliyevin taleyüklü məsələləri inandığı bir insana həvalə etməsi deyildi. Burada dahi liderin uzaqgörənliyi də aydın sezilir. Ulu öndər Heydər Əliyevin 2003-cü ildə xalqa müraciətində əksini tapan bu fikirlər Prezident İlham Əliyevin son 19 ildə gördüyü işlərə, Azərbaycanın əldə etdiyi uğurlara, ən əsası bugünkü qələbəmizə bələdçilik edir: bugünkü qələbənin məntiqi əsası, bünövrəsi və onu yaradan fəlsəfə Heydər Əliyevin fəaliyyətinin məhsuludur. Prezident İlham Əliyev xalqımızın ən böyük arzularını gerçəkləşdirən Şəxsiyyət kimi, eyni zamanda, Müzəffər Liderlik adını əbədi olaraq tarixə yazdı. O, son 200 ildə tarixi torpaqlarını ardıcıl şəkildə itirməyə məhkum edilmiş Azərbaycan xalqının milli mənliyini, mənəvi ruhunu və siyasi gücünü özünə qaytardı, tarixi ədaləti bərpa etdi. Məhz bu tarixi həqiqətləri incələdikdən sonra vurğulaya bilərik ki, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin ardıcıl, uğurlu siyasəti nəticəsində dövlətçilik ənənələrimiz yenidən dirçəldi və inkişaf etməyə başladı. Eyni zamanda, bu gün Azərbaycan dövləti Prezident İlham Əliyevin Liderliyi sayəsində dünyada qalibiyyət və zəfərlər yazan, öz gücü ilə ərazi bütövlüyünü bərpa edən qüdrətli ölkə olaraq tanınmaqdadır. Cənab İlham Əliyev sübut etdi ki, heç bir qüvvə Azərbaycanı haqq yolundan, torpaqlarının işğaldan azad edilməsi uğrunda mübarizədən saxlaya bilməz. O, siyasi peşəkarlıqla Azərbaycana qarşı beynəlxalq miqyasda diplomatik cəbhənin formalaşmasının qarşısını aldı. Və bütün bunların fonunda Qarabağ cəbhəsində Azərbaycan Ermənistanın yürütdüyü 30 illik işğalçılıq, talançılıq, varvarlıq, terrorçuluq siyasətini əməli şəkildə cəzalandırdı.



*Burada dahi liderin uzaqgörənliyi də aydın sezilir. Ulu öndər Heydər Əliyevin 2003-cü ildə xalqa müraciətində əksini tapan bu fikirlər Prezident İlham Əliyevin son 19 ildə gördüyü işlərə, Azərbaycanın əldə etdiyi uğurlara, ən əsası bugünkü qələbəmizə bələdçilik edir: bugünkü qələbənin məntiqi əsası, bünövrəsi və onu yaradan fəlsəfə Heydər Əliyevin fəaliyyətinin məhsuludur.*

Xüsusilə, Şuşamızın işğaldan azad olunması münasibəti ilə Fəxri Xiyabanı və Şəhidlər Xiyabanını ziyarət edən Cənab İlham Əliyev həm də ATA vəsiyyətini yerinə yetirdiyini qürurla, şərəflə vurğuladı. Bu, həm də belə bir qənaətə gələn həqiqətdir ki, Azərbaycan xalqının ulu öndəri Heydər Əliyev işğal altındakı torpaqlarımızın, xüsusilə də Şuşamızın azad olunmasında siyasi varisi Cənab İlham Əliyevin möhtəşəm yer alacağını görürdü! Uzaqgörən və əbədi liderimizin Şuşa vəsiyyəti də onun azad olunmasından sonra xalqımıza çatdırıldı: "Mən bu gün, eyni zamanda, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan!". Bəli, bu dövlətçilik tariximizlə yanaşı, həm də dünyanın yeni tarixinə yazılan bu qalibiyyət simvolunda xalqımızın iki övladının - Ulu Öndər Heydər Əliyevin və Böyük Sərkərdə, Prezident İlham Əliyevin adlarının qızıl hərflərlə həkk olunması artıq danılmaz bir gerçəklikdir - ATA vəsiyyətinin və OĞUL vədinin yerinə yetirilməsi gerçəkliyi! Və bu gün Azərbaycan ən yüksək zirvələri fəth etməklə ulu öndər Heydər Əliyevin görmək istədiyi Azərbaycandır. Və bu gün müqəddəs qələbə günündə hamımız Ulu Öndərin məzarını ziyarət edəcək, onun ruhuna dualar oxuyacağıq. Çünki çox böyük qürur hissi keçiririk ki, əzəli, qədim Azərbaycan torpaqlarına, Qarabağa qayıdırıq, çünki Qarabağ Azərbaycandır! Bir sözlə, Ümummilli Lider Heydər Əliyevin bir zamanlar bütün dünyaya bəyan etdiyi kimi, Azərbaycan vətəndaşının ən gözəl sabahları öndədir, ən qüdrətli zamanları irəlidədir! Azərbaycanın müstəqilliyi daimidir, əbədidir, dönməzdir! Bu gün böyük fəxr hissi ilə qeyd edirik ki, müasir müstəqil Azərbaycan ulu öndər Heydər Əliyevin şah əsəridir. Bu əsəri zənginləşdirən Ümummilli Liderin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində bütün sahələrdə davamlı uğurlara imzanın atılması, Azərbaycanın dünya dövlətlərinin imzaları arasında imzasının olmasıdır. Bu, Heydər Əliyev işığının nurlandırdığı yolun davamçısı Prezident, Ali Baş Komandanımız Qalib Lider İlham Əliyev yolunun dönməz və sarsılmaz yoludur. Bəli, ruhun şad olsun, Ulu Öndər, Qarabağ Azərbaycandır!

Azərbaycan xalqının Qalib Lideri, Azərbaycan xalqının Prezidenti İlham Əliyev dəmir siyasətinin nəticəsində Qarabağ problemi yoxdur! Prezident İlham Əliyev bildirib ki, biz döyüş meydanında, siyasi müstəvidə Qələbə qazanmışıq və bu Qələbə ölkəmiz üçün yeni dövr açır. Bu dövr inkişaf, təhlükəsizlik, tərəqqi dövrü olacaqdır: "Bu dövrlə bağlı müraciətlərimi yenə də hər bir Azərbaycan vətəndaşının arzuladığı sözlərlə yekunlaşdırmaq istəyirəm: Cəbrayıl bizimdir, Füzuli bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Kəlbəcər bizimdir, Laçın bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!".

Bir sözlə, bu gün fəxr edirik ki, 2023-cü ildə "Heydər Əliyev İli" çərçivəsində isə Qarabağa qayıdışın toy-bayram büsatlı günlərinin, biri digərindən maraqlı olan silsilə tədbirlərin şahidi olacağıq.

**RƏFİQƏ KAMALQIZI**



# Təqaüdlərin artırılması sevinc doğurdu





*Bu gün "Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə verilən təqaüdlərin məbləğinin artırılması və "Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 14 fevral tarixli 961 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin imzaladığı Sərəncam minlərlə tələbənin sevincinə səbəb oldu.*

Onların hər birinin dövlətimizin başçısına, onları hər zaman düşünən, maddi-rifah hallarının qeydinə qalan, sosial vəziyyətlərini diqqətdə saxlayan dövlətimizə minnətdarlıqlarını bu sətirlərə köçürmək, təqaüdün bir tələbə üçün nə qədər böyük əhəmiyyətə malik olmasından söhbət açmaq istədim.

Bəli, indi bütün tələbələr sevinc içərisindədirlər. Çünki hələ ötən ilin sonlarından yeni ildə təqaüdlərin artırılması barədə xəbərlər yayılmışdı. Bütün tələbələr isə bunu böyük səbirsizliklə gözləyirdilər. Onlar da bütün dünyada, eləcə də ölkəmizdəki inflyasiyanı hiss edir, öz gəlirlərinin buna uyğunlaşmasını istəyirdilər.

Nəzərə alsaq ki, bütün məhsullarda qiymət artımları müşahidə olunur, deməli, tələbənin də əvvəlki təqaüdləri onların ehtiyaclarının ödənilməsində çətinlik yarada bilərdi. Bütün bunları nəzərə alan dövlətimiz isə digər vacib sahələrdə olduğu kimi, tələbə təqaüdlərinin də dövrün tələblərinə müəyyən qədər uyğunlaşdırılmasını nəzərə aldı və dövlətimizin başçısının 13 yanvar 2023-cü il tarixli sərəncamı ilə bütün növ təqaüdlər artırıldı.

Bəli, dövlətimizin başçısının sərəncamını sevinclə qarşılayan tələbələr indi artıq alacaqları məbləğə uyğun xəyal qurmaqdadırlar. Onlar öz təqaüdlərini necə, hara, hansı ehtiyaclarını ödəyəcəklərini düşünməkdədirlər. Bütün bunlardan öncə isə onu vurğulamaq yerinə düşər ki, hazırda bütün təhsil ocaqlarında tətildir və tələbələr imtahan verirlər. Təqaüdlərin belə bir vaxtda artırılması, təbii ki, tələbələrin məsuliyyətini də artırır. O mənada ki, imtahanların nəticələrindən təqaüdün məbləği asılı olacaqdır. Bunun üçün də tələbələr imtahanlara daha yaxşı hazırlaşacaq, gecələrini gündüzlərinə qataraq imtahanların uğurla keçməsinə, yüksək qiymətlər almağa çalışacaqlar.

## Tələbənin ümid yeri...

Təqaüd tələbənin ümid yeridir. O mənada ümid yeridir ki, nə qədər ailəsi tərəfindən təmin olunsa da, hər ay bu tələbə "maaşını" səbirsizliklə gözləyir. Bütün şəxsi ümidlərini o təqaüdə bağlayır.

Təqaüd tək bu deməkdirmi? Xeyr. Bu tələbə "maaşının" o qədər maraqlı, kövrək tərəfləri var ki... Təqaüd bəzən bir tələbənin ailəsinə köməyidir, bəzən hansısa bacı-qardaşının ehtiyacının ödənməsidir.

Təqaüd tələbənin oxumaq, təhsil almaq üçün sığındığı kirayələrin aylıq ödənişidir. Yoldaşları arasında topladıqları aylıq bazarlıq puludur. Bir miqdarını ayırıb kənara qoyduğu, nə olusa-olsun, əl uzatmayacağı çörək puludur.

Təqaüd çox halda tələbələrimizin ailələrinə hansısa bir ehtiyaclarının ödənilməsi üçün yardımıdır. Atanın, ananın planlaşdırdığı hansısa bir işin reallaşmasına köməklikdir. Təqaüd tələbənin əyin-başıdır, kitab-dəftəridir. Bu səbəbdən də onu hər ay səbirsizliklə gözləməsidir.

Təqaüd o qədər şirindir, bərəkətlidir ki, sanki əlindəki pullar xərclənib gedir, lakin təqaüd xərcləndikcə bitmir ki bitmir. O bərəkət bağlayır. Tələbəni bu aydan qarşıdakı aya aparıb çıxarır. Gündəlik ehtiyaclarını ödəyir. Bir sözlə, təqaüd tələbənin yaxşı yaşaması, təminatıdır.

## İndi ödənişli əsaslarla təhsil alanlar da təqaüd alırlar

Bildiyimiz kimi, təhsil ocaqlarımızda təhsil dövlət hesabına və ödənişli əsaslarla həyata keçirilir. Minlərlə tələbə təhsil ocaqlarımızda ödənişli əsaslarla təhsil alır. Dövlətimizin humanist addımlarından biri də budur ki, artıq bir neçə ildir, həmin tələbələrə də təqaüd almaq hüququ verilmişdir. Bu isə təbii ki, ödənişli əsaslarla təhsil alan tələbələrə böyük dəstəkdir. Həqiqətən də düşünəndə ki, bir ailə övladının təhsil alması üçün xeyli məbləğdə vəsait ödəyirsə, təbii ki, onun övladının digər ehtiyaclarını ödəməkdə çətinlikləri olacaqdır. Eyni zamanda təqaüd elə bir ödəniş növüdür ki, onun hər bir gəncin tələbəlik illərində, gələcək iş həyatına hazırlanmasında, qazancını xərcləmə dərsini almasında böyük əhəmiyyəti vardır. Bütün bunları nəzərə alan dövlətimiz yeni bir ilkə imza atdı və artıq qeyd etdiyimiz kimi, ödənişli əsaslarla təhsil alan tələbələr də təqaüd ala bilirlər.

Bu, həm də tələbələr arasında bərabər hüququn təminatıdır. Müəyyən dərəcədə bal toplayan gənc əgər dövlət vəsaiti hesabına təhsil alırsa, ondan bir neçə bal aşağı toplayan tələbəyə belə təhsil almaq nəsib olmursa, təbii ki, o, ödənişli əsaslarla təhsil alır və bu, onu tələbəlik illərinin ən dəyərli, yaddaqalan məqamından-təqaüd almaqdan məhrum edə bilməzdi. Ona görə də bu sistem tətbiq olundu. Və ixtiyar verildi tələbələrin özlərinə. Onlar təhsil illərində imtahanlardan müvafiq dərəcədə keçməklə təqaüd hüququ qazandılar.

Artıq təhsil ocaqlarımızda minlərlə belə tələbə də təqaüd alır. Bu, həm də onların birbaşa məsuliyyətinə, dərslərə yaxşı hazırlaşmalarına şərait yaradır. Çünki hər hansı bir imtahandan aşağı qiymət alıb "kəsir" yaratmaq təqaüdün kəsilməsi deməkdir. Ona görə də tələbələr bu şansı əldən verməməyə çalışır və həm dərs zamanı, həm də imtahan vaxtı bunu nümayiş etdirirlər.

## Bütün tələbələrə uğurlar arzulayırıq

Yuxarıda da qeyd etdiyimiz kimi, indi bütün ali və orta ixtisas təhsili müəssisələrində imtahanlar keçirilir. Yanvar ayının sonunadək bitməsi nəzərdə tutulan imtahanlar hər 3-4 gündən bir davam etməkdədər. Belə bir zamanda təqaüdlərin artırılması sevinc, bu sevinc isə böyük məsuliyyət hissi doğurmaqdadır.

Bəli, ən yüksək təqaüdü almaq heç də asan başa gəlmir. Çünki bunun üçün tələbədən yüksək hazırlıq tələb olunur. Tələbəlik illərində hazırlığın səviyyəsinə görə təqaüddən-təqaüdə qalxan və enən minlərlə tələbələr olur. Onlar yaxşı bilirlər ki, hansı səviyyədə oxumaqla, çalışmaqla təqaüdlərin hansına sahib ola bilərlər. Maraqlıdır ki, dövlət vəsaiti hesabına təhsil alanları bəzən ödənişli əsaslarla təhsil alanlar üstələyir, bilik və qabiliyyətləri ilə ən yüksək təqaüdü almağa nail olurlar. Yəni bunların hər biri təhsil prosesində ortaya çıxır və kimin nəyə qadir olduğunu göstərir.

Hələlik isə hər bir tələbə hazırkı təqaüdünü itirməyi əsla düşünmür. Çünki söylədiyimiz kimi, təqaüd tələbənin ümid yeridir. Bu səbəbdən də indi imtahanlara qızğın hazırlıq gedir. Ümidvarıq ki, bu hazırlıqlar daha yüksək səviyyəyə çatacaqdır. Həm təqaüdlərin ən yüksəyini almaq, həm əldə edilən təqaüdü saxlamaq, həm də dövlətimizin tələbələrə bu qayğısını dəyərləndirmək üçün.

Bütün tələbələri təqaüdlərinin artırılması münasibətilə təbrik edir, onlara imtahanlarda uğurlar diləyir və dövlət qayğısını hər zaman yüksək qiymətləndirmələrini, dövlətimizə və dövlətçiliyimizə layiq vətəndaş olmalarını, müstəqil ölkəmizin inkişafına özünəməxsus töhfə vermələrini arzulayırıq.

***Mətanət Məmmədova***



# Sonuncu şans

***Ermənistanın nümayiş etdirdiyi qeyri-konstruktiv mövqe səbəbindən iki ölkə arasında münasibətlərinin normallaşması istiqamətində müxtəlif platformalarda aparılan danışıqlarda fasilə və qeyri-müəyyənlik hökm sürür. Hətta iki tərəf rəsmilərinin yaxın günlər üçün görüşəcəyi də qeyri-real görünür və bununla bağlı hər hansı məlumat hələ ki yoxdur. Baxmayaraq ki, Ermənistanın baş naziri Nikol Paşinyan 2022-ci ilin oktyabrında ilin sonuna kimi Azərbaycanla sülh müqaviləsinin imzalanmasının mümkünlüyünü bildirmişdi.***

İlin sonuna doğru isə tamam fərqli mənzərənin şahidi olduq - həm Paşinyan, həm də Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan bir-birinin ardınca müxtəlif bəhanələrlə danışıqlar prosesinin kobud şəkildə pozulmasına səbəb olan addımlar atmağa başladılar. Əvvəlcə erməni baş nazirin Fransanın da vasitəçi kimi iştirakında israr etməsi səbəbindən Avropa İttifaqı Şurasının sədri Şarl Mişelin təşəbbüsü ilə dekabrın 7-də keçirilməsi nəzərdə tutulan növbəti Brüssel görüşü təxirə salındı. Halbuki sözügedən platformada aparılan danışıqlarda ciddi irəliləyişlərə nail olunmuşdu. Hətta Ermənistanın baş naziri məhz Brüsseldə 1991-ci il Alma-Ata Bəyannaməsinə istinad edərək ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü tanıdığını da rəsmi şəkildə bildirmişdi.

Bundan bir neçə gün sonra - dekabrın 23-də isə Moskvada Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin sülh müqaviləsi üzrə danışıqları da baş tutmadı. Məlum olduğu kimi, hər iki ölkənin liderləri Moskva görüşünə razılıq vermişdilər. Ancaq Nikol Paşinyanın tapşırığına əsasən, xarici işlər naziri Ararat Mirzoyan heç bir əsas gətirmədən səfərini son anda ləğv etdi və bununla da danışıqlarda qeyri-müəyyən müddətə fasilə yarandı.

Bəs yeni başlayan 2023-cü ildə Azərbaycan-Ermənistan münasibətlərində nə kimi irəliləyişlər mümkündür? Nikol Paşinyan nəhayət ki, siyasi iradə nümayiş etdirərək sülh müqaviləsi imzalamaq üçün danışıqlar masasına oturacaqmı?

## *Prezident Ilham Əliyev: Ermənistanın hakimiyyət orqanları məsuliyyəti tamamilə öz üzərinə götürməli və sülh müqaviləsi imzalanmasına hazır olmalıdır*









Əvvəlcə qeyd edək ki, iki ölkə arasında münasibətlərinin normallaşması ilə bağlı aparılan danışıqların dayanması birmənalı olaraq Ermənistan rəhbərliyinin günahıdır, Paşinyan hökuməti danışıqların kobud şəkildə pozulması üçün əlindən gələni etdi. Düşmən ölkə rəsmilərinin qeyri-konstruktiv davranışı o dərəcədə diqqətçəkəndir ki, belə olmasa da adətən bu mövzuda neytral mövqe nümayiş etdirdiyini göstərməyə çalışan Rusiya da Cənubi Qafqazda sülh prosesi istiqamətində aparılan danışıqlar prosesinin məhz Ermənistanın günahı ucbatından dalana dirəndiyini etiraf etməli oldu. Yanvarın 12-də ənənəvi brifinq zamanı Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova son görüşlərin Ermənistan rəhbərliyinin günahı ucbatından baş tutmadığını bildirib.

Rəsmi Moskvanın İrəvan-Bakı münasibətlərində yaranan mənfi tendensiyadan narahatlığını dilə gətirən M.Zaxarova Rusiyanın tərəfləri kompromis həll yolları axtarmağa çağırdığını və bunun üçün yardım göstərməyə hazır olduğunu deyib. O, həmçinin ölkəsinin Azərbaycan, Rusiya və Ermənistan nümayəndələrinin üçtərəfli görüşünün keçirilməsi ilə bağlı təklifinin hələ də qüvvədə olduğunu bildirib: "İrəvan, təəssüf ki, dekabrda Moskvada Azərbaycan tərəfi ilə danışıqlar aparmaq fürsətini əldən verdi. Amma təklif hələ də qüvvədədir. Moskva görüş üçün platforma təqdim etməyə hazırdır."

Rusiya Xarici İşlər Nazirliyi sözçüsünün son açıqlamaları bir tərəfdən Ermənistanda geniş vüsət almış anti-Rusiya əhval-ruhiyyəsinə verilmiş cavabdırsa, digər tərəfdən Şimal qonşumuzun mövqeyində Azərbaycanın lehinə müəyyən korrektələr etməsi baxımından diqqət çəkir.

Üçüncü qüvvələrin təsir və təzyiqlərindən qurtula bilməyən Ermənistanın baş naziri Nikol Paşinyan isə yanvarın 10-da keçirdiyi mətbuat konfransında növbəti dəfə ürəyində başqa niyyət tutsa da dilində sülh çağırışları səsləndirib. Maraqlıdır ki, Paşinyan bir tərəfdən danışıqları kobud şəkildə pozaraq sülh müqaviləsinin imzalanmasına mane olur, digər tərəfdən ara-sıra həm beynəlxalq ictimaiyyəti çaşdırmaq, həm də erməni cəmiyyətində fikir formalaşdırmaq məqsədilə "sülhə sadiqliyindən" danışır. Erməni baş nazir mətbuat konfransında "Azərbaycanla sülh müqaviləsi sənədinin imzalanmasının yaxşı xəbər olacağını" bildirib və əlavə edib ki, bu, tərəflərin öz maraqlarını balanslaşdıra bildiklərini ifadə edəcək: "Ermənistan saziş bağlamağa hazırdır və bunun üçün əlindən gələni edəcək." N.Paşinyanın sözlərinə görə, Ermənistan Moskvanın təklifləri əsasında Azərbaycanla sənəd imzalamağa hazırdır: "İrəvan, həmçinin Qərb ölkələrinin təkliflərini nəzərdən keçirməyə hazırdır. Lakin əsas məsələ gələcək sənədin məzmunundadır".

Göründüyü kimi, Ermənistanın baş naziri yenə də sözlərinin sonunda əvvəlki fikirlərindən hər an imtina etməyə bəhanə verən fikirlər səsləndirib. Məlum məsələdir ki, sülh sənədinin məzmunu ilə razılaşmamaq üçün bəhanə tapmaq qarşı tərəf üçün adi haldır.

Azərbaycan isə Ermənistandan fərqli olaraq sülh danışıqlarına hər zaman sadiqlik nümayiş etdirir. Bunu danışıqların bütün formatlarının təşəbbüskarları, vasitəçiləri görürlər və başa düşürlər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində Cənubi Qafqazda yeni sülh erasının başlanmasının, mehriban qonşuluq münasibətlərinin yaradılmasının, iki ölkə arasında kommunikasiyaların bərpasının, sərhədlərin delimitasiyasının və demarkasiyasının həyata keçirilməsinin Azərbaycan üçün prioritet istiqamətlərdən olduğunu növbəti dəfə bəyan etdi. Dövlətimizin başçısı Ermənistanın baş nazirinə onun görməli olduğu işləri də xatırlatdı: "Ermənistan görməli olduğu işlərin heç birini görməyib. Əgər ritorikanı, bu şikayət intonasiyasını kənara qoysaq, praktiki olaraq xarici dövlətlərin başçıları ilə hər bir görüşdə sadəcə xəbərçilik edir. Mən buna başqa ad tapa bilmirəm. Bu, sadəcə cılız qeybət, xəbərçilikdir. Bunu anonim adlandırardım, lakin anonim deyil, hər şey konkret adamların adından səslənir. Buna görə də düşünürəm ki, bu kontekstdə Ermənistanın hakimiyyət orqanları məsuliyyəti tamamilə öz üzərinə götürməli və sülh müqaviləsi imzalanmasına hazır olmalıdırlar. Xüsusən ona görə ki, mən əvvəlcədən demişəm, biz bu beş prinsipi irəli sürəndə də demişdim ki, bu, hansısa çoxcildlik olmamalıdır. Bu, çox sadə bir kağız, əsas prinsipləri əks etdirən sadə sənəd olmalıdır. Əlbəttə, orada bizim daxili problemlərimiz və Qarabağ ilə bağlı bütün məsələlər barədə söhbət də ola bilməz."

Azərbaycan Prezidenti Ermənistanın 30 il ərzində işğalda saxladığı ərazilərimizdə törətdiyi dağıntıları, xalqımızın keçirdiyi iztirabları, ağrıları xatırlatdı. Bildirdi ki, buna baxmayaraq, biz sülh barədə danışırıq. Lakin bu təkliflər masa üzərində çox qalmayacaq və əgər Ermənistan Sülh çağırışlarından yenə də yayınarsa, sülh istəmirlərsə, heç lazım da deyil: "Delimitasiyanı istəmirlər - heç lazım da deyil. Deməli, sərhəd bizim lazım bildiyimiz yerdən keçəcək. Lakin mən artıq belə terminlərdən istifadə etməyə məcburam. Sərhəd delimitasiya edilməyib, bəs kim deyir ki, sərhəd buradan deyil, oradan keçir. Mən hesab edirəm ki, buradan keçir. Mənim bunu demək üçün əsaslarım var - tarixi, kartoqrafik əsaslar. Buna görə bu məsələ bizdən çox onları maraqlandırmalıdır. Biz uzun müddət belə yaşaya bilərik, sülh müqaviləsi olmasa heç lazım da deyil. Amma sonra nə olacaq? Sonrasına baxarıq. Buna görə də düşünürəm ki, onlar mənim mesajlarımı eşidəcək və düzgün nəticə çıxaracaqlar."

Prezident İlham Əliyev müsahibəsində 2023-cü ilin Ermənistan üçün sonuncu şans olduğu ilə bağlı da xəbərdarlıq etdi: "Bu il sonuncu şans olacaq. Ona görə ki, sonra 2024-cü il gəlir, sonra 2025-ci ildə Rusiyanın sülhməramlı missiyası başa çatır. Onlar burunlarının ucundan bir qədər irəli barədə düşünməlidirlər."

Beləliklə, 2023-cü il Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin imzalandığı, münasibətlərin normallaşması istiqamətində əsaslı addımların atıldığı il olmalıdır. Və göründüyü kimi, buna Ermənistanın daha çox ehtiyacı var. Əks halda, itirən son illərdə olduğu kimi, yenə elə Ermənistanın özü olacaq. Özü də çox şey itirəcək...

***Mahir Rəsuloğlu***

# Çoxluq niyə qara rəng geyinir?



***Araşdırmalar göstərir ki, psixoloji xəstəlikləri olan insanlar rəng seçimlərindən özlərini uzaqlaşdırırlar. Gündəlik həyatda aksessuarlarınızda və ya paltarlarınızda üstünlük verdiyiniz rənglər psixologiyanızın güzgüsüdür.***



Hər zaman olduğu kimi, indi də Bakı küçələrində qara rəngə çox üstünlük verildiyini görürük. Küçəyə çıxın və diqqətlə ətrafa baxın. Tez-tez başdan ayağa qara geyinmiş biri ilə qarşılaşacaqsınız. Bəs, çoxluq niyə qara rəng geyinir? Bu maddiyyatla bağlıdır, yoxsa mental qeyri-ixtiyari davranışdır? SİA mövzu ilə bağlı araşdırma aparıb. Araşdırmalara görə, insanlar uyğunlaşdıqları rənglərdə özlərini çox daha dinc hiss edirlər. Uyğun olmadığını düşündükləri rənglər arasında çox bədbəxt və narahat olan insanlar rəng seçimlərini bu istiqamətdə edirlər.

Qara depressiyanın rəngidir. Daha da pisi, yoluxucudur. Deməli, biz bunu başqalarında nə qədər çox görürüksə, bir o qədər də qara geyinirik. Qara matəm rəngidir. Ona görə də yas günlərini keçirərkən rəngli paltarlar geyinməyi özümüzə uyğun görmürük. Qara ruhsuzluğun rəngidir. Gənclər yetkinliyə keçid üçün, əsl şəxsiyyətini tapana qədər qara rəngdə israr edirlər.

Qara iş həyatında uğur, özünə inam və səlahiyyəti simvollaşdırır. Ancaq dostcasına özünə inam, ortaq bir səlahiyyət deyil. Təvazökar olduğu qədər də təkəbbürlüdür... Ən etibarlı qarderob seçimi. İstənilən rəngi udmaq qabiliyyətinə malikdir. O, izdihamda itir və ya başqa rəngə uyğun gəlmir. O gizlənir; nə qədər gizlədirsə, digərinə qarışır, yəni rəng vermir. Yapon dizayneri Yohji Yamamoto qara üçün dediyi kimi, ”Mən səni narahat etmirəm, məni narahat etmə”.

İnsanların psixoloji vəziyyətinin geyimləri ilə əlaqəsi var. Depressiyadadırlarsa, daha tünd olan rənglərə üstünlük verirlər. Bu qaranlıq hiss hətta evimizi boyadığımız rənglərə də təsir edir.

Qara rəng düşündüyümüz kimi hamımıza yaraşmır. Rəng Kodu Markasının yaradıcısı və onun şəxsi rəng məsləhətçisi Zeynep Tarhan Müslün deyir ki, qara asanlıqla tapılan və birləşdirilən, bolca istehsal edilən və çoxları tərəfindən risksiz qəbul edilən bir rəngdir. Amma onu daşımaq və şəxsi rəng koduna uyğun olaraq düzgün şəraitdə birləşdirmək əslində çox çətindir. İnsanların bölündüyü rəng qruplarına görə, qara yalnız yüzdə 25-inin təpədən dırnağa qədər geyinə bildiyi tondur.

Məşhur türk simalardan olan Sinan Çətin, Cem Yılmaz, Mustafa Ərdoğan, Neslihan Hakimi və Bilgin Gökberk məşhur olmaqla yanaşı, bir ortaq cəhəti də var. Belə ki, onların hamısı qara geyinirlər. Bəs niyə? Onlara bu sualı verəndə ”Qara geyinmək gözəl hissdir” deyirlər. Modelyer Simay Bülbülün sözlərinə görə, onlar nəcib və güclü görünmək istəyirlər. Bəzi insanlar zəif göründüyü üçün ciddi görünmək üçün qara paltar geyinirlər. Elələri var ki, həmişə qara geyinirlər. Cem Yılmaz da qara geyinən məşhurlardandır. Onu ancaq filmlərdə qaradan başqa geyimdə görürük. ”Qara paltarlı modaçı” deyəndə ağlınıza Neslihan Hakim gəlir. Almaniya kansleri Angela Merkelin qara rəngə çox üstünlük verdiyi məlumdur. Merkel tənqidə məruz qalmasaydı, bəlkə də həmişə qara geyinərdi. Amma o, dövlət başçısı olduğu üçün tənqidlərə biganə qala bilməz. Merkelin məşhur qara paltarı var.

Qara köynək geyindiyi üçün işdən qovulan bir idman şərhçisi də var, onun hekayəsini faciəli, yoxsa gülməli adlandıracağımıza qərar verə bilmədik. Bilgin Gökberk TRT-də idman şərhçisi kimi çıxış edib. Amma həmişəki kimi kostyumla yox, qara köynəklə. Hər həftə ”TRT-yə köynəklə gedə bilməzsən” xəbərdarlığı alırdı. Bir il yarım belə xəbərdarlıq edildikdən sonra onu qovdular. Kanaldan sonra zəng vurdular, amma artıq gec idi. Gökberk indi Kanal 24-də qara köynəkdə şərhlər edir. Gökberk qara rəngə aludə olmadığını deyir. ”Tez-tez ekrana çıxıram, ekran paltarı istəyirdim, qara köynək seçdim” deyir.

Stil məsləhətçisi, geyim psixoloqu Rena Əliyeva: ”İşığı əks etdirmək əvəzinə udan piqmentlər qara görünür. Rənglər piqmentlərin əks etdirdiyi işığın dalğa uzunluqlarından asılı olaraq əmələ gəlir. Praktikada bu rəng hesab olunur. Ton yox. Rənglər piqmentlərin əks etdirdiyi işığın dalğa uzunluqlarından asılı olaraq əmələ gəlir. Ətraf mühitdə işıq olmadıqda, hər şey qara görünür, çünki işıq əks oluna bilmir başqa sözlə, heç bir şey görünmür.

Qərb ölkələrində qara matəm, ölüm və kədər rəngidir. Hamımız müxtəlif vaxtlarda ətrafımızdakı gizlənmək üçün qara rəngdən istifadə edirik. Bəzilərimiz çəkimizi gizlətmək üçün istifadə edir, bəzilərimiz duyğularımızı, qorxularımızı və ya etibarsızlığımızı gizlətmək üçün istifadə edirik.

Bəziləri güclü və ciddi görünmək üçün qara rəngdən istifadə edirlər. Bəziləri daha zəif göründüyü üçün buna üstünlük verirlər. Qara rəngi sevən insanlar ümumiyyətlə yüksək hörmətə, fədakarlığa və qətiyyətə sahibdirlər. Bundan əlavə, qara geyinən insanların daha çox psixoloji problemi olduğu aşkar edilib. Bizim cəmiyyətə gəldikdə isə, mən tez-tez müştərimlərlə alış-veriş prosesində olduğum üçün bəzi hallarda qara rəng məcburiyyətə çevrilir. Çünki gözəl kəsimli, yaxşı materiallı fərqli kəsimli geyimlərin bir çoxu qara rəngdədir.

Adətən dizaynerlər fərqli kəsimlər etdikdə, qeyri-adi bir modeldə geyimlər hazırladıqda bu zaman rəngi sadə tutmağa üstünlük verirlər ki, qarışıqlıq yaranmasın. Bu zaman qara rəng məcburiyyətdir. Çünki başqa rəng tapmaq olmur. Ümumiyyətlə isə bizim cəmiyyət qara rəng geyinməyə çox meyillidir. Rəngli geyinməkdən qorxurlar. Əslində hər birimiz qaranın matəm rəngi olduğunu bilirik. Bu hərkəsə fərqli enerji verməyə bilər, amma adətən çox xoş enerjisi olmayan və sizi gizlədən bir rəngdir. Qara rəng geyinən insanlar görünməkdən qorxurlar. Onlar gözəl olmaq istəyə bilərlər. Amma bunu gönürərək yox, ikinci planda qalaraq etməyi seçirlər.

5 illik təcrübəmə əsasən deyə bilərəm ki, mənə müraciət edən insanların 50 faizindən çoxu ”Biz ancaq qara geyinirik və bu rəngdən çıxmaq istəyirik” deyirlər. Çünki məsələn, çəhrayı bir köynək almısınızsa, onun altına geyinəcəyiniz şalvar rəngi baş qarışdıran məsələdir. Qara rəng belə düşünülür ki, hərşeylə uyğunlaşır. Bu səhv fikirlərdir. Nə də biz başdan ayağa qara geyindikdə arıq görsənmirik”.

***Ayşən Vəli***

ARAŞDIRMA



## Kimin torpağına kimi çağırırsan?..

**Mətanət Məmmədova**

**Həqiqətən də həyatda iki cür insan var: yerli və yersiz. Yəni, yerində olan, özünə hörmət edən və yerində olmayan, özünə hörmət hissi olmayan insan. Məsələn, yerində olan insanların hərəkətləri kimi, ağızlarından da dürr yağır. Lakin yerində olmayan insanlar hərəkətləri kimi, necə deyərlər, ağızlarının da danışığını bilmir. Ona görə də hər zaman insanlar tərəfindən bu cür qarşılanırlar: nə qədər yersizdir.**

Ermənistanın Baş naziri Nikol Paşinyanı tanıyandan onun hərəkətləri kimi, danışıqlarında da bir yersizlik duymaqdayam. Bu insanda yersizlik sonradan yaranmayıb, anadangəlmədir. Çünki ilk öncə onun cismində baş nazir postuna yaraşan ağırlıq, çəki yoxdur. Duruşu, yerişi, hərəkətləri kimi, ağzından çıxan bütün cümlələr də yersizdir. Məsələn, bu adamın Şuşada Cıdır düzündə rəqsini yəqin ki, xatırlamayan yoxdur. Parlamentlərində çıxış üçün kürsüyə yaxınlaşanda yerişi də gözdən qaçan məqam deyil. Çıxışları zamanı jestləri isə bütün diqqətləri özünə çəkir. Niyə? Yersizliyi ilə.

Bu adamın cismi və daxili aləmi nitqinə də yansıyıb. Ağzından çıxan bütün cümlələr nədənsə rəsmi deyil, sanki küçədə-bacada sıradan insanların bir-biri ilə söhbətinə bənzəyir. Və şahid olanlar saysızdır ki, çox vaxt da danışıqları ilə özünü yandırır. Məsələn ”Qarabağ Ermənistandır” demək istədiyi təqdirdə ağzından çıxan ”Qarabağ Azərbaycandır” ifadəsi kimi. Dil dolaşar, düzünü deyər misalı kimi, bunu başa düşürük. Lakin bu adam özünü ifadə edə bilmir. Bu günlər mətbuatda rastlaşdığım bir xəbər isə Nikol Paşinyan haqqında yersizlik məqamını bir daha ağlıma gətirdi. Və bu barədə yazmağı və oxucularımla paylaşmağı da özümə borc bildim.

Baxın, Nikol Paşinyan yanvarın 10-da keçirdiyi mətbuat konfransı zamanı bildirib ki, 2025-ci ildə Rusiya sülhməramlı kontingentinin Qarabağda mandatı başa çatdıqdan sonra, İrəvan beynəlxalq sülhməramlıların Qarabağa göndərilməsi məsələsi ilə bağlı BMT Təhlükəsizlik Şurasına müraciət edə bilər.

Kremlin rəsmi sözçüsü Dmitri Peskov isə dərhal Nikolun ağzının üstündən vuraraq bu yersiz fikrinə münasibət bildirib və deyib ki, BMT Təhlükəsizlik Şurasının sülhməramlı missiyasının Qarabağda yerləşdirilməsi yalnızca Bakı və İrəvanın razılığı əsasında mümkündür. Hə, indi Nikol Paşinyana sual vermək istəyirəm ki, sən özünü nə hesab edirsən? Hansı havalardasan? Nə düşünürsən, nə danışırsan, heç fərqindəsənmi?

Sən kimin torpağına kimi çağırırsan? Bu haqqı haradan alırsan? Qarabağ hara, sən hara... Sənə bu torpaqlara beynəlxalq sülhməramlıları çağırmaq haqqını kim verir? Yəni, yersiz, yersiz, bu qədər yersiz? Vallah, mətbuat konfransında özünü jurnalistlər qarşısında gündəm etməkdir məqsədin, yoxsa xalqına özünü göstərməkdir, əlindən nə isə bir iş gəldiyini gözə soxmaqdır, nədir, deyə bilmərəm, lakin onu deyə bilərəm ki, yerini bilsən, daha yaxşı olar.

Birincisi, sənin xalqın ermənilərlə birlikdə Qarabağla heç bir əlaqəniz yoxdur. Çəkilib yerinizdə oturmağıız çox məsləhətdir. Onsuz sonda belə də olacaq.

İkincisi, 44 günlük Oarabağ savaşında ağız açmadığın təşkilat, zəng etmədiyin ünvan qalmadı. Sənə əhəmiyyət verən oldu ki, 2025-ci ildə də yenidən onlara ağız açasan? Düzdür, bir-iki nənədən, bacıdan tapıb sözünü deyə bildin. Lakin onların da bir ayağı burada, bir ayağı görda olduğu üçün əllərindən bir iş gəlmədi.

Üçüncüsü, hələ 2025-ci ilə xeyli vaxt var. Hələ o zamana qədər nələr baş verəcək, nələr olacaq, bunu da zamanın özü göstərəcək.

Sonuncu isə onu demək istəyirəm ki, bax hər dəfə belə yersiz-yersiz danışanda cavabının dərhal verilməsinə baxmayaraq yenə də yersiz danışmağa davam edirsənsə, deməli, yersizlik həqiqətən də səndə anadangəlmədir. Məgər Azərbaycan hardadır ki, sən özbaşına Qarabağa sülhməramlı çağırırsan?

44 gündə o torpaqların sahibini görmədinizmi? Axı qorxunuzdan heç bilinmirdi axı harada gizlənmisiniz. İndi nə əcəb səsiniz yenidən çıxır? Biz humanistlik etdikcə, deyəsən, sizin dəmir yumruğun ağrılarını başınızda hiss etməniz azalır, yeni yersiz fikirlərə düşürsünüz...

Bizdə belə bir atalar sözü var: sən saydığını say, gör, fələk nə sayır. Bəli, Nikol Paşinyan, sən və yanındakılarla birlikdə sizlər, sayın saydığınızı, öz yersiz planlarınızı qurun, toplaşın, götür-qoy edin, bacılarınızdan məsləhət alın, xəyal qurun, utopiyaya qapılın, lakin əsla Qarabağı bir daha düşünməyin. Çünki onun sahibi gəlmiş və sizdən onu böyük Zəfərlə geri almışdır. Bundan sonra sizin Qarabağda necə və hansı şərtlər altında yaşamağınızı da Zəfərli dövlət müəyyən edəcək. Sən yersiz-yersiz danışıqlarınla gündəm olmağa əsla can atma. Hələ 2025-ci ilədək nələr baş verəcəyini görəcəksiniz. Bəlkə onda dərk edib deyəsən ki, mən 2023-cü ildə iki il sonra kimin torpağına kimi çağırmağı düşünürdüm...



"Biz, Ermənistandakı Nikol Paşinyan rejimi kimi "müttəfiqlərlə" münasibətdə daim hazır olmağa məhkumuq", deyə "Kremlovskaya praçka" yazır

# Rusiyanın nüfuzlu teleqram kanalı: “Fransa Zaqafqaziya cəbhəsi açır”






***Rusiyanın 300 minə yaxın izləyicisi olan nüfuzlu "Kremlyovskaya praçka" teleqram kanalı son vaxtlar Ermənistanda artan anti-Rusiya siyasəti, eləcə də Fransanın Ermənistan vasitəsi ilə regiona soxulma cəhdləri barədə analitik şərhlə çıxış edib. Məqalənin regionumuza həsr olunmasını nəzərə alaraq oradakı bir neçə diqqətçəkən məqamları diqqətinizə çatdırırıq.***





Beləliklə, Fransanın Cənubi Qafqaza daxil olması üçün Ermənistan kartından yararlanması faktorlarına toxunan adıçəkilən kanalın yazdığına görə, Fransa məhz bu vasitə ilə Rusiyanın tarixi və strateji maraqları olan regionda əlavə gərginlik yaratmağa çalışır. SİTAT: ”Ermənistan formal olaraq KTMT-ni sona qədər tərk etməyə imkan tapmamış özünə yeni himayədar tapıb, halbuki İrəvanı Rusiya ilə müttəfiqlikdən heç kim çıxarmayıb. Seçim aşkardır - Fransa”.

## ”Emmanuel Makron paşinyançı rejimə şəxsi simpatiyasını gizlətmir”

Qeyd olunur ki, Fransada spekulyasiya kapitalına malik ənənəvi güclü erməni diasporu öz işini görür. SİTAT: ”Yaşlı qadınları sevən və gecə zəngləri aludəçisi olan ölkənin hazırkı lideri Emmanuel Makron paşinyançı rejimə şəxsi simpatiyasını gizlətmir. Avropa İttifaqı hər halda Ermənistana, Azərbaycanla sərhədə yeni və daimi müşahidəşi missiyasını göndərdi. Keçən missiyasının mandatı dekabrda başa çatmışdı, amma Qərb kəşfiyyatının iştahaları hələ indi-indi artmağa başlayır. Psevdodemokratik strukturların nə olduğu da məlumdur. Onlar xüsusi xidmət orqanlarına davamlı informasiyalar ötürənlər, hətta təxribatçılardır...”

## ”Əvvəlki himayədarların, həm də xilaskarların (Rusiyanın) fikirləri Paşinyana maraqlı deyil”

”Kremlovskaya praçka” davam edir ki, hələlik, Ermənistana 70 adam gedir, amma onların köməkçilərini, analitikləri və yerli mütəxəssis-kollaborasionistlərin saylarının ümumilikdə 300-400 nəfər olduğu bildirilir. O da bildirilir ki, missiyanın rəsmi hədəfi ”sərhədlərdəki gərginliyi azaltmaqdır”, ancaq əsl hədəf Cənubi Qafqazda möhkəmlənmək marağıdır. Teleqram kanalı bu xüsusda yazır. SİTAT: ”Bizim XİN (Rusiya) bağırmaqdan yoruldu ki, sərhəd münaqişələrinin qarşısını yalnız sərhədlərin delimitasiyası və demarkasiyası sayəsində almaq olar, Moskva tərəflərə bu məsələdə istənilən dəstəyi göstərməyə hazırdır. Ancaq əvvəlki himayədarların, həm də xilaskarların (Rusiyanın) fikirləri Paşinyana maraqlı deyil”.

”Missiyanı fransız diplomat Şarl Fris idarə edir ki, o da bundan əvvəl Nikol Paşinyanla bir-iki dəfə görüşmək imkanı əldə etmişdi”

Daha sonra qeyd olunur ki, əslində, monitorinq missiyasını Makronun ötən ilin oktyabrındakı bəyanatından sonra ortaya atıblar. Belə ki, Makron həmin ərəfələrdə iddia edirdi ki, məhz Rusiya Cənubi Qafqazda destabillik yaradır. O da xatırladılır ki, Praqada Azərbaycan Prezidentinin, Ermənistanın baş nazirinin və Aİ sədrinin üçtərəfli görüşündə Paşinyanın təkidi ilə fransız prezidentini də dəvət etdilər və beləliklə, Aİ-nin müşahidəçi missiyası mövzusu ortaya atılmış oldu.

SİTAT: ”Dekabrda fransız diplomatiyasının başçısı Katrin Kolonna açıq, lakin apellyasiyasız şəkildə bəyan etdi ki, ”missiya Azərbaycan-Ermənistan sərhədlərindəki eskalasiya riskini azaltdı. Sanki ”timsahlar ona görə yoxdur ki, onları effektli qaydada qovuram meydanında. Və budur, yenidən həmin mövzu ortaya atılıb. Missiyanı fransız diplomat Şarl Fris idarə edir ki, o da bundan əvvəl Nikol Paşinyanla bir-iki dəfə görüşmək imkanı əldə etmişdi. Həmin Paşinyanla ki, buna qədər KTMT-nin Ermənistanda keçirilməli olan təlimlərində iştirakdan rəsmən imtina etmişdi və eyni zamanda bildirmişdi ki, Rusiya sülhməramlıları müdafiəçi deyillər, təhlükə yaradandırlar. Hər şey Parisin Kiyev hakimiyyətinə fəal dəstəyi fonunda baş verir. Məhz fransızlar ukraynalılara ilk olaraq zirehli texnikalar göndərməyə başlamışdılar”.

”Əgər sərhəddə yeni toqquşmalara təhrik olacaqsa, bu, Makronun deyil, Ermənistanla Azərbaycanın problemi olacaq... Hər halda Napoleonun həyatını necə başa vurduğunu da unutmamaq lazımdır”

Beləliklə, ”Kremlyovskaya praçka” ona da işarə edir ki, əslində, Fransa bu kimi vasitələrlə və astaca ”ikinci cəbhə” açmağa hazırlaşır. SİTAT: ”Yeri gəlmişkən, birinci dəfə deyil. Napoleon da Cənubi Qafqazda Rusiyaya qarşı ikinci cəbhə açaraq İranda möhkəmlənməyə cəhd edirdi. Həmin vaxtlarda fransızlar öz hərbi məsləhətçilərini axın-axın oraya göndərməklə Rusiya ilə müharibə aparmalarına nail olmuşdu.

İndi isə Fransa xəyal edir ki, uzaqgörən olmayan, amma hakimiyyəti sevən Paşinyan vasitəsi ilə Gümrüdəki rus hərbi bazasını yığışdıracaq, yəni ölkəmizi ümumiyyətlə, Cənubi Qafqazdan çıxaracaq. Əgər sərhəddə yeni toqquşmalara təhrik olacaqsa bu, Makronun deyil, Ermənistanla Azərbaycanın problemi olacaq... Hər halda Napoleonun həyatını necə başa vurduğunu da unutmamaq lazımdır”.

***Rövşən RƏSULOV***

***Hormonal pozğunluqlar endokrin sistemdə pozulmalardır ki, qadınlarda kliniki olaraq ilk növbədə aybaşı dövrünün pozulması ilə özünü göstərir. Reproduktiv yaşda olan qadınlarda hamiləlik və laktasiya dövründə menstruasiyanın uzun müddət gecikməsi təbiidir. Qalan vaxtlarda menstruasiyanın 5-7 gündən çox gecikməsi həkim müayinəsini tələb edir.***





# Hormonal pozğunluqlar qadınların həyatına necə təsir göstərir?



Menstruasiya gecikməsinin fizioloji səbəbləri:

- Güclü emosional və ya fizioloji stres
- İdman
- Məşq və ya iş yükü

Anoreksiya kimi psixoloji xəstəliklər də hormonal fona təsir göstərir.

Premenopozda menstruasiya nizamsızlaşdıqda ginekoloq tərəfindən müayinə tövsiyə olunur. Soyuqdəymə, xroniki xəstəliklər, qastrit, tiroid disfunksiyası, diabet, böyrək xəstəliyi və s. belə hallarda həkim nəzarəti mütləqdir.

### Qadınlarda hormonal pozğunluqların səbəbləri nədir?

SİA mövzu ilə bağlı araşdırma apa-



rıb.Qadınlarda hormonal pozğunluqların səbəbləri arasında mərkəzi sinir sisteminin, endokrin sistemin işində nasazlıqlar olanda da baş verir. Bunlara artan psixo-emosional stress, viral infeksiyalar aiddir.

Hormonal balanssızlığın ən çox görülən səbəblərindən biri stressdir. Stres bədəndəki kortizol səviyyəsi kəskin şəkildə artır, bu da müxtəlif sistemlərin işində balanssızlığa səbəb olur.

Hormonal pozğunluqların digər səbəbləri:

-endokrin xəstəliklər;

-cinsi yolla ötürülən xəstəliklər;

-zəifləmiş toxunulmazlıq;

-xroniki iltihab;

-antidepresanların qəbulu;

-oral kontraseptivlərin qəbulu;

-mədə-bağırsaq traktının patologiyası;

-neyroendokrin tənzimləmənin pozulması (insult, ensefalit, travmatik beyin zədəsi);

-diabet;

-ağır, yorucu yüklər (həm emosional, həm də fiziki);

-hormon terapiyası;

-onkoloji xəstəliklər;

Hormonal tarazlıq bir qadının sağlamlığını və rifahını müəyyənləşdirir, eyni zamanda, onun hamilə qalma və uşaq dünyaya gətirmə qabiliyyətinə təsir göstərir. Hər 10 qadından 8-i bu və ya digər şəkildə endokrin xəstəliklərdən əziyyət çəkir. Bir çoxu analıq yolunda çətinliklərlə qarşılaşana qədər problemdən xəbərsizdir.

Cərrah, mama ginekoloq Vüsalə Tağıyeva: "Cinsi hormonal pozuntular ciddi fəsadlara gətirib çıxara bilər. Xüsusən də, belə qadınlar aybaşı pozulmaları sonsuzluq və ya kişilərə məxsus ikincili cinsi əlamətlərin olması şikayəti ilə bizə müraciət edirlər. Əsasən, aybaşının miqdarının az olması, kəsilməsi və ya heç ilk aybaşının (menarxe adlanır) olmamasından şikayətlənirlər. Əlbəttə ki, bu cür pozuntular sonradan qadında sonsuzluq problemlərinə gətirib çıxarır. Ona görə də zamanında ginekoloji müayinə şərtdir.

Səbəblərə gəldikdə isə, genetik səbəb, Adrenal hiperplaziya (böyrəküstü vəzidə həddindən artıq böyümə), yumurtalıqlarda olan maskulə edici (yeni kişiləşdirici) şişləri vurğulamaq olar. Yumurtalıqlarda olan bu şişlərə nadir hallarda rast gəlinir və "Arrhenoblastoma" adlanır. Bu androgen adlanan kişi hormonları ifraz olunmağa başlayır. Beləliklə də, qadınlarda kişiyə məxsus olan əlamətlər meydana çıxır. Bu haqda uzun və ətraflı danışmaq olar, sadəcə, ən önəmlisi onu vurğulamaq istəyirəm ki, valideynlər çox diqqətli və həssas olmalıdırlar. Əgər qızlarında ilk aybaşı (Menarxe) olmasında gecikmə, ikincili cinsi əlamətlərdə dəyişikliklər varsa, mütləq gecikdirmədən ginekoloqa müraciət etməlidirlər. Ən azından bir ultrasəs müayinədən keçib, hormonal paneli yoxlamaq, gərəkli olarsa genetik kariotip analizinə baxılmalıdır. Və zamanında müdaxilə olunmalıdır. Elə hallar da olur ki, fenotipcə, yeni xarici görünüşcə qadın tipli olub, kariotip isə kişi kariotipi ola bilir. Bu halda xaricdən qadına bənzəsə də, daxildən müayinə əsnasında qadına məxsus daxili cinsi orqanların olmadığı üzə çıxır.

Yəni nə uşaqlıq, nə yumurtalıqları var. Bu, artıq genetik səbəb sayılır. Təbii ki, belə hallarda nə aybaşı görə bilirlər, nə də uşaq sahibi ola bilirlər".

***Havar Şəfiyeva***

# ARAŞDIRMA



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

# Paşinyan Vardanyanın ağzından "vurdu", amma...

***Bugünlərdə Qarabağın cinayətkar rejimi ilə Ermənistan arasında telemarafon keçirilib və mövzu demək olar ki, bütövlükdə Qarabağa, eləcə də Laçın yolu üzərində keçirilən ekoaksiyaya, erməni tərəfinin təbirincə desək, "blokadaya" hərs olunub. Və bir daha sübut olunub ki, Qarabağdakı quldur rejimin "rəhbərliyi" özlərinin siyasi, hətta mümkün fiziki ölüm saatlarını tezləşdirməkdə israrlıdırlar. Necə deyərlər, onların hər addımı Azərbaycanın diqqətindədir, izlənilir və eyni zamanda, ağızlarından çıxan istənilən əleyhimizə olan fikirlər də "dəftərə" yazılır...***

Telemarafon zamanı şəxsinə suallar ünvanlanan dövrünün siyasi dələduzu, milyarder Ruben Vardanyan suallara cavabları fonunda bir daha özünün absurd bəyanatları ilə diqqət çəkib. Misal üçün, "Biz Bakı ilə dialoqa hazırıq, amma təslim olmaqla deyil, həmin şətrlərlə ki, dialoq qonşular arasında olduğu kimi baş tutmalıdır", deyən Vardanyan bir daha özünün Kremlin desantı olduğunu digər ifadəsi ilə isbatlayaraq bildirib ki, onların - yəni qarabağlı separatçı rejimin Rusiyadan daha fəal gözləntiləri var. Daha dəqiq desək, Laçın yolundakı ekoaksiyanın dayandırılması və s. Vardanyan Rusiyanın məlum dairələrinin adamı olduğunu başqa səmtdən də etiraf edib. O bildirib ki, əgər ermənilər rusiyalı sülhməramlıları tənqid edirlərsə bu zaman Azərbaycana kömək etmiş olurlar. Belə ki, Azərbaycan onların regionu tezliklə tərk etmələri marağındadır.

Fəqət, Ruben Vardanyanın ən çox diqqətçəkən fikri onun təxribat xarakterli digər fikridir. SİTAT: "Bizim qarşımızda üç yol var: ya Azərbaycanın qanunlarına tabe olmaq və Azərbaycan vətəndaşları kimi yaşamaq, ya köçüb-getmək, ya da bu mübarizədə qələbə qazanmaq".

Təbii ki, bu dələduz milyarder bir həqiqəti də unudub ki, onun Qarabağda yaşayan sadə ermənilərdən fərqli olaraq iki yolu var - ya hər hansı yolla aradan çıxmaq (Laçın yolu bilavasitə onun və əlbəttə ki, digər separatçı-quldurlar üçün bağlıdır), ya da həyatı ilə vidalaşmaq!

Və Vardanyanın Ermənistandakı hakimiyyətlə qarşıdurmaya getməsinin əsas səbəbi onun növbəti fikirləri ilə isbatlanmış olur. SİTAT: "Biz öz torpaqlarımızda yaşamaq haqqımız uğrunda mübarizə aparırıq ki, bu da Ermənistanın rəsmi mövqeyindən fərqlənir".

Söz yox ki, Vardanyanın həmin fikirləri yuxarıda da qeyd olunduğu kimi, Azərbaycanın müvafiq dairələri və güc mərkəzləri tərəfindən qeydə alınır. Amma gəlin görək, onun Ermənistan barədə dediklərinə hansı reaksiyalar göstərilib?

Məsələn, Ermənistanın baş naziri Nikol Paşinyan Qarabağdakı separatçılara xitabən deyib ki, onlar bu kimi bəyanatları verməkdən çəkinməlidirlər, çünki həmin bəyanatlar situasiyanı daha da çətinləşdirir. "İlk olaraq situasiyanı daha çıxılmaz vəziyyətə siyasi bəyanatlardan çəkinmək lazımdır", deyən Paşinyan Vardanyan və onun timsalındakı digər separatçıları "situasiyanı faktlar əsasında qiymətləndirməyə" çağırıb.

Ancaq son olaraq biz belə bir nəticəyə gələ bilərik ki, istər Qarabağdakı cinayətkar rejimin, istərsə də Ermənistan rəhbərliyinin nə demələrindən, hansı mövqedən çıxış etmələrindən asılı olmayaraq Azərbaycan öz yolunda qətiyyətlə addımlayır və o cümlədən, nəyin necə və nə vaxt ediləcəyini də bilavasitə Prezidentimiz daha yaxşı bilir. Ona görə də proseslərin məhz Azərbaycan xalqının və dövlətinin xeyrinə başa çatacağını bəri başdan deyə bilərik. Məhz Azərbaycan əsgərinin nişangahı bəlli yeri hədəfə alıb - həmin hədəf(lər) isə istənilən anda vertikal vəziyyətdən horizontal vəziyyətə salına bilər. Hər halda vaxt da, hadisələr də səmərəmizə doğru sürətlə (!) irəliləməkdədir.

# "Azərbaycan etibarlı enerji təchizatçısı kimi tanınıb"

## Prezident İlham Əliyev: Azərbaycanın qaz sahəsi azı 100 il beynəlxalq bazarlara öz ehtiyatlarını tədarük edəcək

***Son dövrdə dünyada baş verən proseslər Azərbaycanın enerji ixracatçısı mövqeyini daha da gücləndirdi. Xüsusən də, Ukraynada baş verənlərlə bağlı Qərblə Rusiya arasındakı qarşıdurma və qarşılıqlı sanksiyalar nəticəsində Avropanın enerji təminatında ciddi problemlər yaranıb. Belə bir şəraitdə Azərbaycan Avropanı enerji ilə təmin etməyə potensialı varmı? Ölkəmiz yaranmış bu imkanlardan necə bəhrələnə biləcək? Azərbaycan Prezidenti İlham Əliyev yerli televiziya kanallarına verdiyi müsahibədə bu məqamları izah edib.***



Dövlət başçısı deyib: Son illərdə enerji təhlükəsizliyi məsələləri dünya gündəliyində əsas yerlərdən birini tutub. Bu o deməkdir ki, həmin məsələ daim beynəlxalq təşkilatların, ən nüfuzlu müxtəlif beynəlxalq forumların gündəliyində olub və Azərbaycanın neft-qaz sənayesi layihələrini necə reallaşdırması həmişə tərəfdaşlarımızın böyük hörmətini qazanıb. Lakin Rusiya-Ukrayna müharibəsi başlayandan sonra, əlbəttə, ola bilsin başqa məsələlər enerji təhlükəsizliyi məsələlərini geridə qoyub və Avropada gündəlikdə 1-ci yeri tutub. Bu, izah ediləbiləndir. Əlbəttə, Azərbaycanın enerji resurslarına maraq əhəmiyyətli dərəcədə artıb. Hərçənd bundan əvvəl də belə bir fikir bərqərar olmuşdu ki, Azərbaycan çox ölkələr, o cümlədən Avropa İttifaqı üzvü olan ölkələr üçün etibarlı tərəfdaşdır. Azərbaycanın imkanları artırdı və biz, necə deyərlər, evdə işlərimizi uğurla görür, daha sərfəli bazarlara istiqamətlənirdik. Təbii ki, Cənub Qaz Dəhlizi istifadəyə veriləndən sonra biz, o cümlədən Avropa İttifaqı ölkələrinə də qaz ixrac etməyə başladıq. Nəzərə alırdıq ki, biz həm "Şahdəniz" yatağından, həm də başqa yataqlardan əlavə hasilat gözləyirik. Məsələn, əgər bütün işlər plan üzrə getsə, bu il "Abşeron" yatağından, gələn il isə, əgər yenə, hər hansı fors-major manevələr olmasa, 2024-cü ildə biz "Azəri-Çıraq-Günəşli" yatağından belə adlandırılan "dərin qaz" ("deep gas") hasilatına başlamağı planlaşdırırıq".



Rusiyanın qoyduğu sanksiyalarla bağlı Avropanın təbii qaz təchizatında yaranmış böhran onları alternativ imkanlardan maksimum bəhrələnməyə məcbur edir. Bəs belə bir şəraitdə Azərbaycan Avropanı enerji ilə təmin etməyə potensialı varmı?

Dövlət başçısı bildirir ki, bunun üçün potensial var: "Azərbaycanın təsdiq edilmiş ehtiyatları məlumdur, mən onları dəfələrlə bildirmişəm- 2,6 trilyon kubmetr, lakin əminəm ki, bundan qat-qat çox olacaq. Çünki bizim neft yataqlarında fəaliyyət təcrübəmiz göstərir ki, qazma işləri davam etdikcə, ilkin qiymətləndirmələrlə müqayisədə ehtiyatların həcmi çoxdur, Azərbaycanın qaz sahəsi azı 100 il beynəlxalq bazarlara öz ehtiyatlarını tədarük edəcək, yəni, texnologiyalar inkişaf etdikcə, hasilat imkanları artacaq. Buna görə də 2,6 trilyon kubmetr bizim potensialımızın təsdiqlənmiş minimal həcmidir. Qaz kəmərlərinin hamısının inşa edilməsini nəzərə alsaq, təbii ki, Avropa İttifaqı ilə biz tədarükün artırılmasını hədəfləmişik. Lakin bundan ötrü, əlbəttə, hasilata investisiya qoyulması zəruridir və biz bunu edirik, bundan ötrü mövcud qaz kəmərlərinin genişləndirilməsi zəruridir. Ona görə ki, həm TANAP, həm də TAP kəmərləri bizim kontrakt bağladığımız həcmlər üçün nəzərdə tutulub. Biz belə qısa perspektivdə Avropaya tədarükün iki dəfə artırılmasına ehtiyac olacağını nəzərə almamışıq".

Onsuz da Azərbaycanın qaz ixracı xeyli artıb və bunun da çox hissəsi Avropaya yönəldilir. Prezident bunu rəqəmlərin dili ilə izah edib: Əgər biz 2021-ci ildə Avropaya 8 milyard kubmetrdən bir qədər çox qaz tədarük etmişdiksə, bu il 12 milyard kubmetrə yaxın olacaq. Bütövlükdə bu il 24 milyard kubmetrə yaxın ixrac gözlənilir. Buna görə də biz qaz bazarında, o cümlədən Avropa bazarında artıq ciddi aktora çevrilirik. Artıq indi TANAP-ın və TAP-ın buraxıcılıq qabiliyyətinin iki dəfə artırılması barədə düşünürük. Əlbəttə, bundan ötrü tərəfdaşlarımızla məsləhətləşmələr aparılır. TANAP layihəsinə gəldikdə, burada işlər asandır, çünki biz bu layihənin əsas iştirakçısıyıq və əsas maliyyə yükü bizim üzərimizə düşəcək. TAP layihəsində bizim payımız 20 faizdir, buna görə orada, əlbəttə, konsensusa nail olmaq məsələləri üzərində daha çox işləməli olacağıq. Biz neft-qaz sahəsinə aid layihələrə həmişə strateji baxımdan yanaşmışıq, çünki başa düşürdük ki, qaz kəmərləri və neft kəmərləri reallaşdırılmasa, biz öz resurslarımızla sanki qapalı məkanda qalacağıq.

Beynəlxalq enerji şirkətləri, ilk növbədə, məsələnin iqtisadi tərəfine- nə vaxt sərmayə qoymaq, nə vaxt genişlənmək lazım olmasına baxırlar. Yəni, beynəlxalq enerji şirkətlərindən onların beş il sonra lazım olacaq layihəyə milyardlarla sərmayə qoyacağını gözləmək düzgün deyil. Buna görə biz burada öz strateji təsəvvürlərimizi, - indiyə qədər bu məsələdə heç vaxt yanılmamışıq, - tərəfdaşlarımızın iqtisadi imkanları və iqtisadi siyasəti ilə uzlaşdırmağa çalışırıq və indi bu istiqamətdə işləyirik.

Yunanıstan-Bolqarıstan interkonnektorunun istifadəyə verilməsindən sonra yeni perspektiv istiqamətlər açılır, artıq açılıb. Azərbaycan qazı Bolqarıstan bazarına, bu ildən etibarən həm də Rumıniya bazarına daxil olur. Yəni, mahiyyət etibarilə biz Nabucco layihəsinin müəyyən versiyasına yaxınlaşırıq. Yadınızdadırsa, bu layihə barədə illər boyu çox fəal diskussiyalar gedirdi, lakin sonradan ona ehtiyac olmadı. Əslində, indi interkonnektorlar şəbəkəsinin, məsələn, Yunanıstan-Bolqarıstan interkonnektorunun yaradılması işləri çox fəal gedir. Mən onu da bilirəm ki, Serbiyanı ümumi sistemlə birləşdirəcək interkonnektor üzərində iş gedir və o cümlədən Serbiya ilə qaz tədarükünə dair danışıqlar aparılır, bu şəbəkənin yaradılması bizim qaz ehtiyatlarımızı həmin bazara yönəltməyimizə imkan verəcək. İonika-Adriatik dənizi layihəsi reallaşdırılsa, bu layihə hazırda Azərbaycan qazını almayan daha üç Balkan ölkəsini əhatə edəcək.

Biz Albaniyanın qazlaşdırılması barədə fəal danışıqlara başlamışıq. Bu halda Albaniya yalnız tranzit ölkədir, bu ölkədə qaz şəbəkəsi yoxdur və bu iş kifayət qədər xərc tələb edir. Bu halda biz yaxın dostlar və tərəfdaşlar kimi öz xidmətlərimizi təklif etmişik və hazırda qazlaşdırma yerlərinin seçilməsinin, ilk növbədə, hansı şəhərlərin qazlaşdırılmasının razılaşdırılması məsələsinə dair iş aparılır.




Beləliklə, Avropanın, Balkanların, Qərbi Avropanın energetika xəritəsinə geniş nəzər salsaq, bu xəritə birmənalı olaraq müxtəlif arteriyalarla birləşir və bu, həm bizə, həm də onlara uzunmüddətli strategiyanı planlaşdırmaq imkanı verir. Əlbəttə, Avropa ölkələrinin çoxunun belə adlandırılan "yaşıl keçid" proqramını da unutmaq olmaz. Bu halda müəyyən müddətdən sonra mədən yanacağından imtina edilməsi nəzərdə tutulur. Lakin mənim müşahidələrimə görə hazırda Avropa qaz bazarındakı meyillər, - əlbəttə, bu proqram qüvvədədir, - enerji təhlükəsizliyi ilə bağlı mövcud vəziyyət Avropa strukturlarını enerji təhlükəsizliyinə daha realist mövqedən yanaşmağa sövq edəcək. Buna görə də əminəm ki, uzunmüddətli perspektivdə qazdan və neftdən imtina edilməsi gözlənilmir".

Ölkə prezidenti təbii qaza tələbatın getdikcə artdığını və Avropanın təzhizat mənəbılərinin çox olmadığını deyib: "Əgər Avropanı qidalandıran qaz kəmərlərinə baxsaq görərik ki, onların sayı o qədər də çox deyil. Yəni, mövcud təchizatçılar, sadəcə olaraq, qaz hasilatını artırırlar, çünki Avropada böyük tələbat var. Yeni təchizatçılar arasında isə Azərbaycan təkdir. Nəzərə alsaq ki, bizim çox böyük resurs bazamız var, artıq infrastrukturumuz var və Avropa İttifaqı ilə təkcə energetika sahəsində yox, bütün sahələrdə çox fəal əməkdaşlığımız var, əlbəttə ki, diqqət Azərbaycan üzərinə yönəldilir. Əlbəttə, biz öz məsuliyyətimizi də dərk edirik və çalışırıq ki, yeni tərəfdaşlar üçün də etibarlı tərəfdaş olaq".

Göründüyü kimi, Azərbaycan Prezidenti ölkəmizin enerji siyasətini qlobal proseslərə uyğunlaşdırmasını və effektiv həyata keçirilməsinin necə təmin edildiyini ətraflı izah edib. Energetika sektoru ölkəmizin təkcə iqtisadi gəlirlərini artırmır, həm də siyasi nüfuzunu artırır. Dövlətimiz bu sahədə qoyulmuş investisiyaların hələ uzun onilliklər boyu ölkəmizə xeyli fayda verəcəyini görür və bu sketordan əldə edilən gəlirlərlə qeyri-neft sahələrini inişaf etdirməyə çalışır. Lakin məhz etibarlı enerji təchizatçısı statusu ölkəmizin beynəlxalq aləmdə ciddi nüfuz qazanmasına daha çox səbəb verən amillərdən olub. Azərbaycan öz enerjisi ilə dünyaya çıxır və dünyanı öz enerjisinin gücü ilə fəth edir.

***Elçin***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

SON SƏHİFƏ
Səs
14 yanvar
2023-cü il

# Hansı xalqlar 2973-cü ilə girib?



Əlcəzairdə yaşayan Amaziq-Berberlər yerli təqvimlərinə görə 2973-cü ilə qədəm qoyublar. SİA xarici mətbuata istinadən xəbər verir ki, Amazinq-Berberləri Əlcəzairdə yaşayan Şimali Afrikanın ən böyük və köklü xalqlarından biridir. Rəvayətə görə, Amaziq-Berberlər 12 Yanvarı Yeni İl Günü (Yennayer), Berber Kralı Şişnakın Misir fironu II Ramzes üzərində qələbə qazandığı gün kimi hesab edirlər.

***Banuçiçək Hüseynli***

# “Tələbələrin ailələrindən asılılığı azalacaq”



## TƏHSİL ESKPERTİ AÇIQLADI

**”Hal hazırda Azərbaycanda:**

**1.** Ali təhsil müəssisələrinin əyani şöbələrində təhsil alan tələbələrin sayı: 141274 (Ümumi tələbə 163779) nəfər.

Təqaüd alanlar: 53408 nəfər

Tələbələrin ümumi sayına nisbət: 37,8 faiz



**2.** Orta ixtisas təhsili müəssisələrinin əyani şöbələrində oxuyan tələbələrin sayı: 41522 (Ümumi tələbə 44208) nəfər

Dövlət orta ixtisas təhsili müəssisələrində təqaüd alan tələbələrin sayı: 19322 nəfər

Tələbələrin ümumi sayına nisbət: 46,5 faiz

3.İlk peşə-ixtisas təhsili müəssisələrində oxuyan tələbələrin sayı: 34658

Peşə təhsili müəssisələrində təqaüd alan tələbələrin sayı: 16532 nəfər

Tələbələrin ümumi sayına nisbət: 54,5 faizdir”. Bu sözləri S?A-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib.



O, dünya ölkələrində olan təqaüdləri qeyd edib:

**1.** Rusiyada tələbələrin aldığı təqaüd 40 dollardır.

**2.** Belarusiyada tələbələrin təqaüdü 53 dollardır.

**3.** Ukrayna tələbələri 80 dollar təqaüd alır.

**4.** Qazaxıstanda təqaüd orta hesabla 184 dollardır.

**5.** Fransada belə təqaüdlər 350 avro

**6.** Liviya və Səudiyyə Ərəbistanında tələbələr 700 dollar təqaüd alırlar.

**7.** Küveytdə isə subay tələbələr 700, ailəlilər isə 1200 dollar təqaüd alır.

**8.** İtaliyada tələbələr 840 avro

2010-cu ildən universitetlər özünü maliyyələşdirməyə keçib və gövlət təkcə tələbə təqaüdlərini ödəmir, eyni zamanda 52 ali təhsil müəssisəsində təhsil alan 60 min tələbənin həm də təhsil haqlarını ödəyir. Yəni bura dövlət sifarişli ixtisaslar üzrə təhsil alanlar və sosial statusuna görə təhsil haqqından azad olunanlar daxildir”.

Kamran Əsədov sözlərinə belə davam edib: ”Nəzərinizə çatdırım ki, bu gün təhsilimizdə standart, prezident təqaüdü, xüsusi təqaüd və adlı təqaüdlər sistemi mövcuddur.

Bunlardan başqa bəzi universitetlərin daxili təqaüd proqramları da var. Yəni, universitetə qəbul olma balına uyğun təqaüd, bir də tələbənin universitet həyatındakı fəaliyyətinə görə təqaüd. Yəni, hər bir tələbənin hətta 100 faiz təhsil alanlar belə təqaüd almaq imkanı var. Amma çalışan, oxuyan tələbə ilə vaxt keçirən tələbəyə bərabər təqaüdün verilməsi ədalətli olmaz. Ona görə də, hər kəsə öz biliyinə, bacarığına uyğun təqaüd vermək, qiymətləndirmək lazımdır.

Təklif edirəm ki, tələbələrə yalnız dövlət büdcəsindən deyil, həmçinin Elm və Təhsil Nazirliyindən və Universitetlərin ödənişli təhsildən aldığı vəsaitlər hesabına yaradılan Fonddan adlı (rektor, prorektor, dekan) təqaüdləri verilsin.

Qeyd edim ki, hal hazırda ölkədə SABAH təqaüdü - 50 manat, ”Gələcəyin müəllimi” təqaüdü - 100 manat, Kənd təsərrüfatı tələbə təqaüdü - 100 (yüz)- 200 (iki yüz) manat, AZERCELL tələbə təqaüdü - 200 manat, SOCAR tələbə təqaüdü - 100 manat və 20 universitetdə tanınmış şəxslərin adına adlı təqaüdlər var. Misal üçün, Bakı Dövlət Universitetidə 22 ziyalının adına təqaüd verilir, ”Azərbaycan” Universitetində ”Şəhid Fəxrəddin Qurbanlı adına təqaüd” - 500 manat verilir, Odlar Yurdu Universitetində isə 9 adda təqaüd sistemi mövcuddur.

Bir neçə ildir tələbələrin təqaüdü ilə bağlı yeni qaydalar tələbələr arasında rəqabət mühiti yaradıb. Yuxarıdan aşağı akademik göstəricilərə görə tələbələrin biliklərə yiyələnmə tablosu əks olunur. Yəni istər özəl, istərsə də dövlət ali və orta ixtisas təhsil müəssisələri olsun dövlət sifarişi olan ixtisaslar üzrə təqaüdü həm bu sifarişə əvvəlcədən sahib olan, həm də ödənişli ixtisaslarda oxuyan tələbələr ala bilirlər. Yəni indiyə qədər mövcud olan dövlət sifarişinə əvvəlcədən sahib olmaq sonadək bu imtiyazı saxlamaq (tələbənin oxuyub-oxumamağından asılı olmayaraq) məsələsi ortadan qalxır. Əsas şərt akademik göstəricini qorumaqdır.

Ölkə prezidentinin müəyyən etdiyi yeni artım tələbələrin sosial rifah halının müsbət şəkildə dəyişməsinə ciddi təsir edəcək. Onların ailələrindən asılılığını azaldacaqdır”.

***Ayşən Vəli***

# Ağac avtomobilin üstünə aşıb

***Xaçmaz rayonunda ağacın avtomobilin üzərinə düşməsi nəticəsində sürücü xəsarət alıb. SİA-nın məlumatına görə, hadisə rayonun Ağtala kəndində baş verib. Belə ki, Nərəcan-Uzunoba avtomobil yolunda hərəkətdə olan ”VAZ-2107” markalı avtomobilin üzərinə ağac aşıb.***



Hadisə zamanı sürücü 1992-ci il təvəllüdlü Allahverdiyev Vüsal Cəlaləddin oğlu müxtəlif dərəcəli bədən xəsarətləri alıb. O, Xaçmaz Rayon Mərkəzi Xəstəxanasının cərrahiyə şöbəsinə yerləşdirilib. Faktla bağlı araşdırma aparılır.

# Hadisə "Takvim"i məhkəməyə verdi



***Xəbər verdiyimiz kimi, dünyaca məşhur içki markasının müğənni Hadisəni reklama çəkməkdən son anda imtina etdiyi iddia olunub.***

Axşam.az xəbər verir ki, məsələ ilə bağlı açıqlama yayan ifaçı bu barədə məlumatı yayımlayan ”Takvim” qəzetini məhkəməyə verib.

”11.01.2023-cü il tarixində ”Takvim gazatesi”ndə ”Hadisənin qalmaqallı həyatı başına bəla oldu, dünyaca məşhur içki markasının amerikalı sahibləri Hadisə ilə bağlanan milyonluq müqaviləni geri çevirdi” başlığı altında yazı yazılıb. Yalan olması ilə yanaşı, müvəkkilimin şəxsi hüquqlarına və nüfuzuna zərbə vuran xəbərə cavab vermək məcburiyyətində qaldıq.

Qəzetin gerçək olmayan, eyni zamanda müvəkkilimə, onun sənətçi nüfuzuna, iş etibarına istiqamətlənmiş sistemli hücum və etibar zədələnməsi məzmununda olan xəbərə cavab, eyni zamanda təkzib haqqımız var. Bundan istifadə edərək hüquqi prosesi başlatdıq” deyə, Hadisənin vəkili Orhan Erol Müezzinoğlu bildirib.

Qeyd edək ki, Hadisəyə çəkiliş qarşılığında 14 milyon lirə (təxminən 1 milyon 268 min 660 manat) təklif olunmuşdu.

# “Azərtransservis” Açıq Səhmdar Cəmiyyətinin Səhmdarlarının nəzərinə

14 fevral 2023-cü il tarixdə saat 10:00-da Bakı şəhəri, Binəqədi rayonu, Dərnəgül qəsəbəsi, 3105-ci məhəllədə yerləşən ”Azərtransservis” ASC-nin baş ofisində cəmiyyətin səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncaqda müzakirə olunması nəzərdə tutulan məsələlər aşağıdakılardır:

**1.** “Azərtransservis” ASC-nin Nizamnaməsinin yeni redaksiyada təsdiq edilməsi;

**2.** Digər məsələlər.

Yığıncağın gündəliyi üzrə materiallarla tanış olmaq və əlavə məlumat almaq üçün ”Azərtransservis” ASC-nin baş ofisinə, həmçinin azertransservis@gmail.com e-mail ünvanına müraciət etmək olar.

”Azərtransservis” ASC

***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,**
**Üzeyir Hacıbəyov küçəsi, 66.**

**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 3600**